

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

BDU

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

29 Oktyabr 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**Türkiyənin ölkəmizdəki səfiri Bakı Dövlət Universitetində olub**

→Səh.2

**Köln Universitetinin professoru "Nizami həftələri" layihəsi çərçivəsində BDU-da mühazirə oxuyub**

→Səh.3

**BDU-da "Qarabağ zəfəri - Azərbaycan dövlətçilik tarixinin şanlı səhifəsi" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib**

→Səh.5

**BDU və Çexiyanın Cənubi Bohemiya Universiteti arasında əməkdaşlıq əlaqələri müzakirə olunub**

→Səh.6

**ADA Universiteti yeni təhsil proqramına başlayıb**

→Səh.6

**Mingəçevir Dövlət Universiteti və Bakı Dövlət Universiteti arasında birgə fəaliyyət planının icrasına start verilib**

→Səh.13



**BDU-da "Mir Həmzə Seyid Nigari Qarabaği" Beynəlxalq simpoziumu keçirilib**

→Səh.2



**BDU-nun rektoru Prezident təqaüdçüləri ilə görüşüb**

→Səh.2



**Məşhur "Times Higher Education" (THE) jurnalının regional direktoru BDU-da seminar keçib**

→Səh.5



**"Zəfər Günü"nə həsr olunmuş Beynəlxalq elmi konfrans keçirilib**

→Səh.7



**BDU-nun rektoru şəhid ailələrinin üzvləri olan tələbələrlə görüşüb**

→Səh.15



## 18 oktyabr - Müstəqilliyin Bərpası Günüdür

# Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 ili tamam olur

***1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın milli-demokratik qüvvələrini təmsil edən Müsəlman Milli Şurası 6 maddədən ibarət "İstiqlal Bəyannaməsi"ni qəbul etdi. Bu bəyannamə ilə Azərbaycan öz müstəqilliyini elan etdi.***

1920-ci ildə baş vermiş ictimai-siyasi dəyişikliklər nəticəsində Azərbaycan xalqı milli azadlığından, dövlət müstəqilliyindən, milli-mənəvi ənənələrindən məhrum olmuşdur. Azadlıq, müstəqil dövlət halında yaşamaq xalqımız üçün ən böyük xoşbəxtlikdir, misilsiz nemətdir. Çünki, dövləti olmayan xalq məhvə məhkumdur. Məhz buna görə də qədirbilən xalqımız bugünkü müstəqil dövlətçiliyimiz, siyasi varlığımız üçün, ilk növbədə, öz dahi oğlunun – Heydər Əliyevin parlaq xatirəsini əziz tutur. Hər bir Vətən övladına gün kimi aydındır ki, əgər XX yüzilliyin sonunda Ulu Tanrı şəxsiyyət və zaman problemini Azərbaycanımızın xeyrinə həll etməsəydi - xalqımızın Heydər Əliyev kimi qüdrətli şəxsiyyəti olmasaydı, müstəqilliyimizi qoruyub saxlamaq çox çətin olardı.

Heydər Əliyevin hələ XX yüzilliyin 70-80-ci illərinin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Azərbaycan o zaman SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi. Heydər Əliyevin özünün dediyi kimi: "Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır". Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Böyük düha sahibi yeni Azərbaycanı – bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı! Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli azadlıq hərəkatının yeni mərhələyə – yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunarkən Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

*(Ardı 4-cü səhifədə)*





*BDU THİK Vətən müharibəsində Zəfərə həsr olunan fləşmob keçirib*

# “Mir Həmzə Seyid Nigari Qarabaği” Beynəlxalq simpoziumu keçirilib

***Oktyabrın 3-də Bakı Dövlət Universitetində Qarabağ təkkə-təsəvvüf ədəbiyyatının nümayəndəsi, sufi şairi, təsəvvüf alimi, nəqşibəndi şeyxi Mir Həmzə Mir Paşa oğlu Qarabaği Nigarinin fəlsəfəsinə və yaradıcılığına həsr olunmuş Beynəlxalq simpozium keçirilib. BDU və Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin (TADİV) birgə təşkilatçılığı ilə keçirilən Beynəlxalq simpoziumda Türkiyə və Azərbaycanın dövlət və hökumət nümayəndələri, millət vəkilləri, mədəniyyət və ictimai xadimlər, BDU-nun müəllim və tələbələri iştirak edib.***



Simpozium Azərbaycan və Türkiyə Respublikalarının Dövlət Himnlərinin səsləndirilməsi ilə başlayıb. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev giriş sözü ilə çıxış edərək XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mir Həmzə Nigarinin poeziyası və fəlsəfəsindən bəhs edib. Qeyd edib ki, onun Vətən eşqi, Vətənə bağlılığı Qarabağa həsr etdiyi şeirlərində daha qabarıq ifadə olunur. Qarabağın Şərqi Zəngəzur bölgəsində doğulan, lakin sonralar doğma yurdunu tərk edərək qardaş Türkiyədə məskunlaşmaq məcburiyyətində qalan Mir Həmzə Nigari əsərlərində öz yurduna həsrət və sevgisini daima ifadə edib. “Qara bağrım Qarabağımdır” deyən, “Qarabağdan xəbər versə” küləklərə canını qurban etməyə hazır olan Nigari oranı dünyanın behişti adlandırır. Təsadüfi deyildir ki, insanlar Qarabağ torpaqlarının işğal altında olduğu dövrlərdə bu şeirlərlə təsəlli tapmış, öz həsrətlərini ovundurmağa çalışmışlar. Həm Azərbaycanda, həm də Türkiyədə tələbələr yetişdirən, gənc nəslin elmin sirlərinə yiyələnməsi üçün çalışan, həm də gözəl poetik nümunələr yaradan mütəfəkkir şair iki qardaş ölkə arasında hələ o dövrdə mənəvi bağlılıq yaradan simalardandır.

TADİV-in sədri, Türkiyə Respublikasının Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Aygün Attar çıxış edərək Seyid Nigarinin həyat və yaradıcılığı, fəlsəfəsi haqqında ətraflı məlumat verib.

Plenar İclasda Azərbaycan Respublikasının təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Respublikasının mədəniyyət nazirinin I müavini Elnur Əliyev, Türkiyə Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Cahid Bağcı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Mir Həmzə Seyid Nigari Qarabaği nəslinin davamçısı Mir Sədi Məmmədoğlu çıxış ediblər. Plenar məruzə ilə Xalq şairi Nəriman Həsənzadə çıxış edib.

Beynəlxalq simpozium iki bölmədə fəaliyyətini davam etdirib. Bölmə iclaslarında Mir Həmzə Nigar Qarabağinin yaradıcılığına və fəlsəfəsinə həsr olunmuş elmi məruzələr dinlənilib. Birinci bölmədə Aqil Şirinov “Qafqazda İslami Vəhdətin formalaşmasında Seyid Nigari ənənəsinin rolu”, Oğuzhan Bilgin “Kanaat önderlerinin milli kimliğin inşaasında ve milli bağımsızlıktaki rolü”, Ahmet İyimaya “Hamza Nigari’nin düşündürdükleri”, Mir Sədi Məhəmmədoğlu “Sufilik ve Nigari ailəsinin İslam mənəviyyatının inkişafındakı rolu”, ikinci bölmədə Yalçın Sarıkaya “Seyyid Hamza Nigari devrinde Osmanlı ve Kafkasya’da genel siyasi durum”, Kəmalə Pənahova “Mir Həmzə Seyid Nigari yaradıcılığında sufi mistik düşüncə təzahürü”, Aygen Türkmen “İnancın insan sağlığı üzerindeki etkileri: Hamza Nigari örneği”, Sevda Sadıqova “Xakipayi-dilbər tacı - sərimdir” deyən Qarabağlı sufi şair” mövzusunda məruzə ediblər.

Beynəlxalq simpozium Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində Mir Həmzə Seyid Nigari Qarabağiyə həsr olunmuş konsert proqramı ilə başa çatıb.

# Rektor Prezident təqaüdçüləri ilə görüşüb



***Oktyabrın 5-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev 2021/2022-ci tədris ilində Universitetə qəbul olunan Prezident təqaüdçüləri ilə görüşüb.***

Rektor qəbul imtahanlarında yüksək nəticə göstərmələri münasibətilə tələbələri təbrik edib, onlara gələcək təhsillərində uğurlar arzulayıb. Göstərdikləri səy və çalışqanlıqlarına, biliklərə hərtərəfli yiyələnmələrinə dövlət səviyyəsində qiymət verilməsini, Azərbaycan Respublikasının Prezidentinin təqaüdünə layiq görülmələrini onlar üçün həm böyük qürur, həm də böyük məsuliyyət olduğunu bildirib. Gələcəkdə bu adı layiqincə doğruldacaqlarına, xalqımıza, dövlətimizə layiqli, peşəkar mütəxəssislər kimi yetişəcəklərinə əminliyini vurğulayıb.

Daha sonra rektor tədrisin keyfiyyətinin yüksəldilməsi, yüksək ixtisaslı kadrların hazırlanması üçün BDU-da yaradılmış şərait haqqında tələbələrə məlumat verib. O, Universitetin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu qeyd edərək, 2021-ci ildən "Blackboard” elektron təhsil sisteminin, yeni təlim texnologiyalarının uğurla tətbiq edildiyini diqqətə çatdırıb. Tələbə Elmi Cəmiyyətinin fəaliyyətində yaxından iştirak etməyi, öz bilik və bacarıqlarını tələbə yoldaşları ilə bölüşməyi, birlikdə müxtəlif layihələrdə iştirak etməyi tövsiyə edib.

Universitetin ictimai həyatında tələbələrin yaxından iştirak etdiyini bildirən rektor BDU-nun tələbə təşkilatlarının fəaliyyəti, BDU-da könüllülük hərəkatı haqqında da söhbət açaraq, tələbələri Universitetin ictimai həyatında, sosial layihələrdə yaxından iştirak etməyə çağırıb. Yüksək nəticə göstərmiş tələbələrə, öz bilik və bacarıqları ilə yanaşı, ictimai fəallıqları ilə də tələbə yoldaşlarına nümunə olmağı arzulayıb.

# Türkiyənin ölkəmizdəki səfiri Bakı Dövlət Universitetində olub

***Oktyabrın 8-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev ilə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahid Bağçı arasında görüş keçirilib.***




Rektor Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində tarixi qələbəsindən bəhs edib. Elçin Babayev qeyd edib ki, tarix boyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub. Hər iki xalq istər xoş günlərdə, istərsə də çətin vaxtlarda birlik nümayiş etdirib, bir-birinin sevincini və kədərini bölüşüb. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin ən yüksək səviyyədə olması bütün dünyaya bəllidir. Qırx dörd günlük qürur dolu tarixin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirdi.

Rektor iki qardaş ölkə arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu nəzərə çatdırıb. E.Babayev Türkiyənin qabaqcıl universitetləri, eləcə də təhsil qurumları ilə keçirilən mühüm görüşlər, əməkdaşlıq, mübadilə proqramları haqqında səfirə məlumat verib. Türkiyə universitetləri, Yunus Əmrə İnstitutu, TİKA ilə BDU arasında qarşılıqlı və faydalı əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyini vurğulayıb. Görüşdə Universitetin maddi-texniki bazası, müasir tədris üsulları, fakültələri və mövcud ixtisasları, beynəlxalq əlaqələr sahəsində qazandığı uğurlar, Türkiyənin ali təhsil ocaqları ilə qurulmuş əlaqələrdən danışılıb.

BDU rəhbərliyinə təşəkkürünü bildirən səfir Cahid Bağcı təklifləri müsbət dəyərləndirib, münasibətlərin daha da yüksək səviyyəyə çatması üçün səy göstəriləcəyini vurğulayıb. Universitetlər arasında elm-təhsil sahəsində həyata keçirilən layihələrin, tələbə-müəllim mübadiləsinin vacibliyini qeyd edib, əlaqələrin daha da intensivləşməsinə ehtiyac olduğunu vurğulayaraq səfirliyin bu istiqamətdə dəstək olacağını bildirib. "Bir millət, iki dövlət" şüarını rəhbər tutaraq qeyd edib ki, bundan sonra da qardaş ölkə universitetləri arasında əlaqələrin inkişaf etdirilməsi üçün öz səylərini əsirgəməyəcək.

Görüş BDU və Türkiyə ali məktəbləri arasında təhsil sahəsində əlaqələrin gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsi, iki ölkə arasında tələbə və müəllim mübadiləsi, birgə elmi tədqiqatların aparılması və s. sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi ilə davam edib.

# BDU-da ICESCO-nun “Cihazqayırma və tərsinə mühəndisliyin əsasları” üzrə birinci seminarı başlayıb

***Oktyabrın 4-də Bakı Dövlət Universitetində ICESCO-nun “Cihazqayırma və tərsinə mühəndisliyin əsasları” üzrə birinci seminarı başlayıb. Beynəlxalq tədbir mövcud əməkdaşlıq çərçivəsində ICESCO-nun təşəbbüsü və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və ICESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaxından iştirakı ilə keçirilir.***



Seminara ICESCO-nun Elm və texnologiyalar sektorunun rəhbəri Rahil Qamar və BDU-nun rektoru Elçin Babayev sədrlik edir.

Seminarın ilk günü tədbirin açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Beynəlxalq tədbirin açılış mərasimində BDU-nun rektoru Elçin Babayev çıxış edərək Azərbaycanın ICESCO ilə yaxından əməkdaşlıq edən və bu əlaqələrə böyük önəm verən əsas üzv dövlətlərdən biri olduğunu qeyd edib. Bildirib ki, bu nüfuzlu beynəlxalq təşkilatın əlaqələrindən yararlanaraq digər üzv ölkələrlə təhsil, elm və mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək üçün geniş imkanlar var. Bu əməkdaşlıq əlaqələri BDU-nun da elm və təhsil sahəsindəki uğurlarının artmasına yeni yol aça bilər.

Azərbaycanla ICESCO arasındakı əlaqələrin davamlı inkişafında dövlətimizin başçısı cənab İlham Əliyevin müstəsna xidmətləri var. Təsadüfi deyil ki, 2015-ci ildə ICESCO-nun Baş Konfransının XII sessiyası Bakı şəhərində keçirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sessiyada əhatəli və məzmunlu çıxış etmişdir. 2009-cu ildə təşkilat tərəfindən Bakı şəhərinin, 2018-ci ildə isə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi ölkə başçısının müəyyənləşdirdiyi siyasətə uyğun olaraq qarşılıqlı əlaqələrin dinamik inkişafından xəbər verir. Eyni zamanda onu da xüsusi vurğulamaq lazımdır ki, ICESCO daim Azərbaycanın ədalətli mövqeyini müdafiə etmiş, həm münaqişə dövründə, həm 44 günlük Vətən Müharibəsi günlərində, eləcə də tarixi zəfərimizdən sonra ölkəmizə ən yüksək səviyyədə dəstəyini ifadə etmişdir.

ICESCO ilə əlaqələrin inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasında və canlanmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın misilsiz xidmətlərindən danışan rektor Elçin Babayev, onun sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə geniş miqyaslı və fədakar fəaliyyəti, qayğıya ehtiyacı olan uşaqlara diqqəti, onların yaşayış şəraitinin yaxşılaşdırılması, təhsil və elm sahələrində, həmçinin İslam Dünyasında görülən işlərə böyük dəstəyi barədə qonaqlara məlumat verib.

Sonra BDU-nun əməkdaşı Lalə Hüseynzadənin hazırladığı "Şuşa bizi gözləyir!" adlı qum kompozisiyası və Heydər Əliyev Fondunun Azərbaycanın milli sərvətlərinə, qədim mədəniyyətinə, tarixinə həsr olunmuş videoçarx nümayiş olunub.

ICESCO-nun baş direktoru Salim Al Malikin videotəbriki təqdim edilib. ICESCO-nun fəaliyyətini əks etdirən videoçarx göstərilib.

Daha sonra tədbirdə Azərbaycan Respublikasının ICESCO üzrə Milli Komissiyasının baş katibi Vasif Eyvazzadə, Təhsil Nazirliyinin Elm və ali təhsil şöbəsinin müdiri Nicat Məmmədli, ICESCO-nun nümayəndəsi, elmi tədbirlər üzrə ekspert Foued Elayni, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov, Orta Şərq Texnik Universitetinin professoru Ahmet Oral, Pakistanın Elm və Texnologiya üzrə Milli Universitetinin mühəndisi Mohsin Tivana çıxış ediblər.

Pakistan Virtual Universitetinin rektoru, professor Arshad Saleem Bhattinin açılış mərasiminə təbrik məktubu səsləndirilib.

Tədbirin sonunda xatirə şəkli çəkilib.

Qeyd edək ki, 4-7 oktyabr tarixlərində keçiriləcək seminarın məqsədi cihazqayırmaya və tərsinə mühəndisliyə dair əsas ideyaları təqdim etmək, habelə müxtəlif növ sensorların istifadəsi, verilənlərin əldə edilməsi və emal edilməsi haqqında iştirakçıları məlumatlandırmaqdır. Seminar iştirakçıları cihazların işlənməsinin əsas komponentləri ilə tanış olub, eyni zamanda sensorlardan gələn siqnalları əldə etmək və mikronəzarətçilər vasitəsilə idarə etməyi öyrənəcəklər. Təlimlərin sonunda iştirakçılar özləri temperatur tənzimləyiciləri, elektrik ölçmə sistemləri və s. sadə cihazları işlətməyi təcrübə edəcəklər.

Seminarın ilk hissəsində mühazirə, ikinci hissəsində isə praktik təlimlər keçiriləcəkdir. Təlimlərdə BDU tələbələri ilə yanaşı, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Bakı Mühəndislik Universitetinin tələbələri də iştirak edir.

# Köln Universitetinin professoru “Nizami həftələri” layihəsi çərçivəsində BDU-da mühazirə oxuyub

***Oktyabrın 10-da Bakı Dövlət Universitetində Şərqşünaslıq fakültəsinin təşkilatçılığı və Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin xətti ilə “Nizami həftələri” layihəsi çərçivəsində Köln Universitetinin şərqşünaslıq üzrə professoru, islamşünas və tərcüməçi Stefan Veidner mühazirə oxuyub. Elmi seminarda BDU-nun rektoru Elçin Babayev, Almaniyanın Azərbaycandakı səfirliyinin birinci katibi Andreas Hohlt, səfirliyin əməkdaşları, Şərqşünaslıq fakültəsinin professor-müəllim heyəti və tələbələri, eləcə də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Slavyan Universitetinin tələbələri iştirak edib.***






Seminarda BDU-nun rektoru Elçin Babayev çıxış edərək qonaqları salamlayıb, Köln Universitetinin professoru Stefan Veidnerin mühazirəsinin dahi Nizami Gəncəvi irsinə dünya miqyasında marağın təzahürü olduğunu, dünyada, xüsusilə Avropada mütəfəkkir şairin yaradıcılığının geniş tədqiq edildiyini bildirib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2021-ci ilin “Azərbaycanda Nizami Gəncəvi İli” elan edilməsinin əhəmiyyətindən, dünya və Şərq ədəbiyyatında dahi şairin mövqeyinin yenidən öyrənilməsi, araşdırılması və təbliğinin vacibliyindən bəhs edib. Eyni zamanda BDU ilə Almaniyanın elm və təhsil müəssisələri arasında yüksək səviyyəli əməkdaşlıq, ikili diplom proqramları haqqında məlumat verən rektor, bu əlaqələrin genişləndirilməsinin perspektivlərindən, yeni layihələrin hazırlandığından söhbət açıb.

Almaniyanın Azərbaycandakı səfirliyinin birinci katibi Andreas Hohlt çıxış edərək, birgə mədəni və elmi tədbirlərin ölkələrimiz arasında münasibətlərə töhfə verəcəyini, Nizami ilə bağlı keçirilən “Nizami həftələri” tədbirlər silsiləsinin alman ədəbiyyatı ilə müqayisəli şəkildə aparıldığını qeyd edib.

Köln Universitetinin professoru Stefan Veidner “Şərqşünaslığa yenidən baxış. Niyə Şərq ideyası hələ də faydalıdır” adlı məruzədə Nizaminin Avropa ölkələrində tədqiqi, onun Qərb ölkələrində yaşamış yazıçı və şairlərə təsiri, tərcümə məsələləri, Şərq və Qərb ədəbi ənənələrinin mübadiləsi, təsirlər və əlaqələrin inkişaf xətti, son əsrlərdə ədəbi əlaqələrin təsir dairəsi, Qurban Səid və digər yazıçıların əsərlərinin Qərb düşüncəsinə təsiri və s. kimi geniş mövzular barəsində ətraflı çıxış edib, ümumiləşdirmələr aparıb.

Seminarın sonunda Şərqşünaslıq fakültəsinin dekanı Elxan Əzizov çıxış edərək maraqlı məruzəyə görə professor Stefan Veidnerə təşəkkürünü bildirib. Eyni zamanda Şərqşünaslıq fakültəsinin tarixi, ənənələri, Azərbaycan şərqşünaslıq məktəbinin görkəmli nümayəndələri, professor Ələsgər Məmmədov, akademik Vasim Məmmədəliyevin semitologiya istiqamətində fəaliyyətindən söz açıb. Almaniya universitetlərində Şərqşünaslıq fakültələri ilə əlaqələrin qurulması istiqamətində görülən işlərdən danışıb, bu əlaqələrin qurulmasının hər iki ölkənin elmi və təhsilinə töhfə verəcəyini vurğulayıb.

Sonda iştirakçıların sualları cavablandırılıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# 18 oktyabr - Müstəqilliyin Bərpası Günüdür

(əvvəli 1-ci səhifədə)

***Heydər Əliyev yeni, müstəqil Azərbaycanı qurduğu illərdə tariximizin yuxarıda bəhs etdiyimiz dövrünü yada salaraq deyirdi: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".***



XX yüzilliyin 80-ci illərinin ortalarında, artıq Sovet İttifaqı dərin böhran içərisində idi. Böhran ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrini əhatə etməkdə idi. SSRİ-də başlanmış böhran, əslində, özünü doğrultmayan sosializm cəmiyyətinin ümumi böhranının tərkib hissəsi idi və bütünlükdə sosializm sistemini əhatə etmişdi. Ölkəni yetişməkdə olan növbəti ağır böhrandan xilas etmək üçün 80-ci illərin ikinci yarısında müəyyən cəhdlər göstərildi. Sov.İKP MK-nın 1987-ci il Yanvar plenumunda yeni siyasi xətt – "aşkarlıq və demokratiya xətti" qəbul edildi. Qeyd etmək lazımdır ki, ölkənin türk xalqları 70-80-ci illərin birinci yarısında, artıq mühüm sosial-iqtisadi, mənəvi-intellektual, siyasi inkişaf yolu keçmişdi.

İmperiyanın müxtəlif bölgələrində əvvəlcədən məharətlə hazırlanmış milli münaqişə ocaqları alovlandırıldı. Mərkəz mühüm geosiyasi əhəmiyyəti olan Azərbaycanı və bununla, bütün Cənubi Qafqazı əldə saxlamaq üçün yenidən uydurma "Dağlıq Qarabağ problemi"ni qızışdırdı.

Münaqişəni daha da alovlandırmaq və onun doğurduğu dağıdıcı prosesləri qarşısıalınmaz hala çevirmək üçün 1988-ci il fevral ayının 28-də mərkəzin və Ermənistanın xüsusi xidmət orqanlarının birgə işləyib hazırladığı Sumqayıt təxribatı törədildi. Sumqayıt təxribatı Moskvaya Azərbaycanın partiya rəhbərliyini dəyişdirmək üçün "əsas" oldu. Moskvanın Dağlıq Qarabağ məsələsində yeritdiyi açıq ermənipərəst siyasət, Vəzirov hakimiyyətinin acizliyi və Mərkəzin anti-Azərbaycan siyasətinin yedəyində getməsi, xüsusən də ermənilərin nadir Topxana meşəsində sənaye obyekti tikintisinə başlanması xəbəri Azərbaycan xalqını ayağa qaldırdı. 1988-ci il noyabrın 17-dən Bakıda Lenin meydanında (indiki Azadlıq meydanı) xalq hərəkatı başlandı. Noyabrın 19-da Mərkəzin tabeliyində qalınca Dağlıq Qarabağ məsələsinin həll olunmayacağına əmin olan xalq Azadlıq Meydanında, ilk dəfə olaraq, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını qaldırdı. Hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə Azadlıq Meydanında "Moskvanın fitnələrinə son qoyulsun!", "Suverenlik!", "Azadlıq!" şüarları səslənməyə başladı. Azadlıq hərəkatı yeni vüsət aldı. Dekabrın 4-də gecə Bakıda yerləşən sovet hərbi hissələri hücuma keçib zor gücünə meydanı boşaltdılar. Xalq hərəkatının fəalları həbs olundular. Xalq hərəkatının birinci – kortəbii mərhələsinin zirvəsi olan Meydan hərəkatı göstərdi ki, mitinq və nümayişlərlə mövcud problemin həll olunması mümkün deyil. Moskvanın təyin etdiyi rəhbərlər əvəzinə xalqın özünün sevdiyi, seçdiyi lideri olmalıdır. Liderlə xalq birləşməlidir.

Xalq Azərbaycanın üzləşdiyi taleyüklü problemləri həll etməyə qadir siyasətçi kimi ancaq Heydər Əliyevi gördü. Lakin onun qarşısında yaradılan əngəllər 1990-cı il 20 Yanvar qırğınına aparan yolun da başlanğıcını qoydu. 1990-cı il 20 Yanvar qırğını bir daha xalqın başsız qaldığını göstərdi. Məhz belə bir ağır şəraitdə Heydər Əliyev Moskvanın Azərbaycana qarşı həyata keçirdiyi imperiya siyasətinə öz etiraz səsini qaldırdı. Bu, əslində, 1987-ci ildən sonra Heydər Əliyevin ikinci dəfə böyük siyasətə qayıdışı demək idi. 1990-cı il yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd siyasət yeridən mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Moskvadakı 21 yanvar 1990-cı il tarixli çıxışı ilə Heydər Əliyev Azərbaycan xalqının Qurtuluş mübarizəsinin önünə keçdi.

Azərbaycanda, Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, yanvarın 22-də xalq – yüz minlərlə insanı əhatə edən izdiham seli 20 Yanvar şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Respublikada üç günlük matəm elan olunmuşdu. Azadlıq meydanında izdihamlı matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində milyona qədər insan iştirak edirdi. Bu, azadlıq, haqq, ədalət, demokratiya yolunda, Vətən torpağını – Dağlıq Qarabağı qoruyub saxlamaq naminə canlarından keçmiş şəhidlərin müqəddəs ruhuna ümumxalq ehtiramının, eyni zamanda, Moskvanın qanlı cinayətinə qarşı kəskin ümumxalq etirazının ifadəsi idi. Xalqa qarşı Mərkəzdən göstəriş alan sovet ordusunun qanlı cinayətləri isə hələ bitib-tükənmək bilmirdi. Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. Kütləvi həbslər həyata keçirildi. Lakin imperiya rəhbərliyi və onların yerli əlaltıları Azərbaycan xalqının iradəsini qıra bilmədi.

Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında Heydər Əliyev, bütün qətiyyəti ilə, SSRİ-nin saxlanmasına münasibət bildirilməsi üçün təşkil olunması nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı. "Mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm... Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam... Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir". Heydər Əliyev eyni qətiyyətlə respublika rəhbərliyinin əməldə müstəqillik əleyhinə olduğunu, bunu iqtisadi çətinliklər, uydurma "vətəndaş müharibəsi təhlükəsi" kimi amillərlə əsaslandırmağa çalışdığını, Bakıda fövqəladə vəziyyəti ləğv etmək istəmədiyini və bütün bunların hakimiyyəti əldə saxlamaq niyyətindən irəli gəldiyini göstərdi. SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün kommunistlər birləşib Azərbaycanın referendumda iştirakı barədə qərar qəbul etdilər. Ermənistanın boykot etdiyi bu referendumda Azərbaycanın iştirakı Moskvanın anti-Azərbaycan mövqeyinə heç bir təsir göstərmədi.

Bu ibrətamiz tarixi faktdır ki, Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi ilə Naxçıvan MR-in Ali Məclisi 1991-ci il martın 14-də SSRİ-nin saxlanılması barədə referendumda iştirak etməmək haqqında qərar qəbul etdi. Respublika iqtidarının bunu "separatçılıq" kimi qiymətləndirməsi, Muxtar Respublikaya təzyiqlər göstərməsi Heydər Əliyevi və onun arxasında duran Naxçıvan əhalisini yolundan döndərə bilmədi. Azərbaycanın demokratik qüvvələri də referendumu boykot etdilər. On gün ərzində (qanunla iki ay olmalı idi!) tələm-tələsik "hazırlıq"dan sonra martın 17-də keçirilmiş "referendum"un nəticələri saxtalaşdırıldı, guya səsvermədə iştirak edənlərin tam əksəriyyəti SSRİ-nin saxlanılmasına tərəfdar oldu. Bu, əslində, şanlı istiqlal mübarizəsinə qalxmış Azərbaycan xalqının tarixinə vurulmuş qara ləkə idi. Demokratik qüvvələrin birgə fəaliyyəti nəticəsində SSRİ-də dövlət çevrilişinin qarşısı alındı. Azərbaycanda da irticaya tərəfdar olan qüvvələrə qarşı mübarizə gücləndi. Mitinqlərdə respublikada prezident seçkilərinin dayandırılması, parlamentin buraxılması, yeni parlament seçkiləri keçirilməsi, Kommunist Partiyası hakimiyyətinin, fövqəladə vəziyyətin ləğv edilməsi, DQMV-də Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsi tələb edildi.

Xalqın tələbi ilə çağırılmış Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat – "Azadlıq Bəyannaməsi" qəbul etdi. Sessiyada Heydər Əliyevin bundan az əvvəl keçirilmiş referendumun nəticələrinin ləğv edilməsi, "Azadlıq Bəyannaməsi"nin legitimliyini təmin etmək üçün yeni referendum keçirilməsi haqqında tələbi qulaqardına vuruldu. Heydər Əliyev sessiyadakı çıxışında dedi: "Biz artıq sovet imperiyasının, Kommunist Partiyasının dağılmasının şahidiyik... Bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanılmaz səhvlərdir". O, bildirdi ki, Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. Lakin respublika başçıları hələ də gözləmə mövqeyi tutur, qətiyyətsizlik nümayiş etdirirdilər.

Naxçıvanda isə müstəqillik uğrunda mübarizə getdikcə dərinləşməkdə idi. Belə ki, Naxçıvan MR Ali Məclisi 1991-ci il sentyabrın 3-də dəfələrlə namizədliyini geri götürməsinə baxmayaraq, Heydər Əliyevi xalqın təkidli tələbi ilə Ali Məclisin sədri seçdi. Ali Məclisin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı. Azərbaycan iqtidarı Naxçıvana ciddi təzyiqlər göstərməyə başladı. Bu məqsədlə Naxçıvana xüsusi qüvvələr göndərildi. Lakin Ali Məclisin sədri Heydər Əliyev yerli televiziya ilə bəyanat verib xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr buranı tərk etməlidirlər, əks təqdirdə bütün əhali ayağa qalxacaqdır. İqtidar geri çəkilməyə məcbur oldu. Sentyabrın 8-də keçirilən prezident seçkilərində iqtidar xalq arasında böyük nüfuza malik olan Heydər Əliyevin prezident seçiləbiləcəyindən təşvişə düşüb qanuna yaş senzi və son beş ildə Azərbaycanda yaşamaq haqqında yeni maddə daxil etdi. Xalq bu məhdudiyyətlərin ləğv olunmasını tələb edir, çoxsaylı mitinqlər keçirirdi. Nəticədə Prezident seçkiləri Naxçıvan MR ərazisində keçirilmədi. 8 sentyabr seçkilərinin nəticələrinə görə A.Mütəllibov yenidən respublikanın prezidenti elan olundu. Sentyabrın 14-də artıq tamamilə iflasa uğramış Azərbaycan Kommunist Partiyası XXXIII fövqəladə qurultayını çağırıb özünü buraxılmış elan etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında yekdilliklə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. 1991-ci il dekabrın 29-da isə Azərbaycanda ümumxalq səsverməsi keçirilirdi. Referendum bülletenində bir sual yazılmışdı: "Siz "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?" Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxır. 1992-ci ilin mayında Milli Məclis tərəfindən Azərbaycan Respublikasının Dövlət himni (musiqisi Üzeyir Hacıbəyovun, sözləri Əhməd Cavadın), az sonra üçrəngli bayraq, içində alov olan səkkiz guşəli ulduz təsvirli dövlət gerbi təsdiq edildi.

Beləliklə, Azərbaycan xalqı XX əsrdə dövlət müstəqilliyini bərpa etmək imkanı qazandı. Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildi. Xalq müstəqil dövlətini qurmaq, möhkəmləndirmək, müdafiə etmək və inkişaf etdirmək üçün ağır sınaqlarla, çətinliklərlə üzləşməli oldu. Lakin Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə bu çətinliklərin öhdəsindən gəlməyə nail olmuş Azərbaycan Respublikası həm müstəqilliyini qoruyub saxladı, həm respublika daxilində ictimai-siyasi sabitlik yaratdı.

Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçilik siyasəti Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 44 günlük Zəfər müharibəsi nəticəsində qəhrəman Azərbaycan ordusu və onun Ali Baş Komandanı 30 il düşmən işğalı altında torpaqlarımızı azad etdi, şəhidlərimizin intiqamını aldı. Bu gün işğaldan azad olunan torpaqlarımızda üçrəngli bayrağımız qürurla dalğalanır.

**Anar İsgəndərov,**
*Milli Məclisin üzvü, BDU-nun Tarix fakültəsinin professoru*

# Məşhur “Times Higher Education” (THE) jurnalının regional direktoru BDU-da seminar keçib

## 2022-ci il üçün tərtib olunan reytinqdə Azərbaycan universitetləri arasında ilk dəfə olaraq BDU siyahıda yer alıb

***Böyük Britaniyanın məşhur “Times Higher Education” (THE) jurnalının regional direktoru Lachyn İtalmazova Bakı Dövlət Universitetində seminar keçib.*** Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminarda BDU ilə yanaşı, ölkəmizin 15 ali təhsil müəssisəsinin nümayəndələri, Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli, BDU-nun rektoru Elçin Babayev, elm və inovasiyalar üzrə prorektor Hüseyn Məmmədov, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov və struktur bölmələrin rəhbərləri iştirak edib.

Lachyn İtalmazova çıxışında dünyanın ən nüfuzlu reytinqlərindən olan THE reytinqində ali məktəblərin tanınması və onların reytinqinin davamlı inkişafı barədə məlumat verib, bu istiqamətdə öz tövsiyələrini verib. Sonra iştirakçıların suallarını cavablandırıb.





BDU-nun rektoru Elçin Babayev seminarda çıxış edərək tədbirin təşkilinə görə Azərbaycan Respublikasının Təhsil Nazirliyinə, maraqlı çıxışına görə Lachyn İtalmazovaya təşəkkür edib.

Xatırladırıq ki, “THE” jurnalının fəaliyyət istiqamətlərindən biri dünyanın ali təhsil müəssisələrinin reytinqini tərtib etmək, universitetlərin reytinqinin yüksəlməsi üçün tövsiyələr verməkdir. Jurnalın tərtib etdiyi siyahı dünyanın ən nüfuzlu reytinqlərindən hesab olunur. 2022-ci il üçün tərtib olunan reytinqdə Azərbaycan universitetləri arasında ilk dəfə olaraq BDU siyahıda yer alıb. BDU dünyanın siyahıya düşən universitetləri arasında reytinq sıralamasında 1201+, beynəlxalq reputasiyasına görə isə 864+ yerdə qərarlaşıb.

# BDU-da “Qarabağ zəfəri - Azərbaycan dövlətçilik tarixinin şanlı səhifəsi” mövzusunda Beynəlxalq elmi konfrans keçirilib

***Oktyabrın 18-də Bakı Dövlət Universitetində 18 oktyabr - Dövlət Müstəqilliyinin Bərpası Gününün 30 illiyinə həsr olunmuş “Qarabağ zəfəri - Azərbaycan dövlətçilik tarixinin şanlı səhifəsi” mövzusunda Beynəlxalq onlayn elmi konfrans öz işinə başlayıb.***

Konfransın plenar iclasında əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



İclasda BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev giriş sözü ilə çıxış edərək xalqımızın ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa etməsini mühüm tarixi hadisə kimi qiymətləndirib. Ə.Ağamirzəyev qeyd edib ki, 1991-ci ildə yaranmış tarixi şəraitin nəticəsi olaraq Azərbaycan Ali Soveti avqustun 30-da müstəqillik bəyannaməsini qəbul etmiş, oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında “Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı” qəbul olunmuşdur. Xalqımız 70 ildən sonra öz müstəqilliyini bərpa etmişdir. Müstəqilliyi qoruyub saxlamağın onu qazanmaqdan qat-qat çətin olduğunu tarix dəfələrlə sübut edib. Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. Xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu.

Müstəqilliyinin ilk illərində xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi, Azərbaycanın ərazisinin 20 faizi Ermənistan qəsbkarları tərəfindən işğal edildi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Qarabağ müharibəsi, digər tərəfdən ölkə daxilində gedən siyasi çəkişmələr, separatçılar hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini yaratmışdı. Lakin 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi rəhbərliyə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi.

Məhz milli liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. O, müstəqilliyin möhkəmlənməsində və milli dövlət quruculuğu prosesində Ümummilli lider Heydər Əliyevin xidmətlərini xüsusi vurğulayaraq, bu böyük şəxsiyyətin rəhbərliyi altında Azərbaycanın tarixi nailiyyətlərə imza atdığını söyləyib. Vətən müharibəsində qazanılan parlaq qələbənin ölkənin uğurlu inkişafının nəticəsi olduğunu vurğulayaraq, Azərbaycanın bu möhtəşəm zəfəri Ali Baş Komandanın müdrik qərarları, rəşadətli Ordumuzun gücü və xalqımızın sarsılmaz həmrəyliyi sayəsində əldə etdiyinə diqqət çəkib.

Daha sonra Milli Məclisin üzvü, BDU-nun Tarix fakültəsinin kafedra müdiri Anar İsgəndərov, Tarix fakültəsinin professoru İbrahim Zeynalov, Kitabxanaçılıq-informasiya fakültəsinin dosenti Ələmdar Bayramov, Tarix fakültəsinin professoru Qabil Əliyev, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi Sultan Zahidov məruzə ilə çıxış ediblər.

Konfrans 19-20 oktyabr tarixlərində bölmə iclaslarında öz işini davam etdirib.

# Füzuli və Qubadlı rayonlarının işğaldan azad olunmasının ildönümünə həsr olunmuş tədbirlər keçirilib

***Oktyabrın 18-də Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Füzuli rayonunun işğaldan azad olunmasının ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə Filologiya fakültəsi TGT sədr müavini Elnurə Ağasəfzadə çıxış edərək 44 günlük Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbədən bəhs edərək, Füzuli rayonunun işğaldan azad olunmasında şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın şücaətindən danışıb. Elnurə Ağasəfzadə həmçinin, Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə Füzuli şəhərində həyata keçirilən quruculuq işləri, inşa olunan hava limanı və bir sıra infrastruktur layihələri haqqında məlumat verib.

Daha sonra çıxış edənlər: Filologiya fakültəsi birinci kurs tələbələri - Ülviyyə Orucova, Aydan Rüstəmzadə, Fatimə Nağızadə, Fəridə Süleymanova 30 il ərzində erməni qəsbkarlarının Füzulidə törətdikləri vəhşiliklər, mədəni və dini abidələrə vurulan maddi və mənəvi ziyan barəsində tədbir iştirakçılarına məlumat verib, Füzuli rayonunun qədim tarixi, coğrafi vəziyyəti və iqtisadi potensialı barədə danışıblar.

***

***Oktyabrın 26-da Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Qubadlı rayonunun işğaldan azad olunmasının ildönümü ilə bağlı tədbir keçirilib.***

Tədbirdə çıxış edən Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin TGT sədri Röya Abbasova Qubadlı rayonunun tarixindən, Vətən müharibəsində Qubadlının işğaldan azad edilməsi uğrunda gedən şiddətli döyüşlərdən söhbət açıb. O, həmçinin Qubadlı əməliyyatı nəticəsində Ermənistan ordusunun xeyli canlı qüvvəsinin və texnikasının məhv edilməsindən, bu əməliyyatın Ermənistan ordusunu darmadağın etməsilə yanaşı, psixoloji baxımdan da ermənilərə böyük zərbə olduğunu qeyd edib.

Daha sonra çıxış edənlər - Tətbiqi riyaziyyat və kibernetika fakültəsi Tələbə Gənclər Təşkilatının sədr müavinləri Toğrul Məlikzadə və Əfsanə Ağasiyeva, birinci kurs tələbələri - Fidan Abbaszadə və Ləman Hacıyeva Qubadlı rayonunun zəngin təbiətinə qarşı törədilən ekoloji terroru, rayon ərazisindəki tarixi və mədəni abidələrin dağıdılmasının erməni vandalizminin təzahürü olduğunu qeyd ediblər.

Tədbir Azərbaycan Respublikasının Prezidenti cənab Prezident İlham Əliyevin işğaldan azad edilən Qubadlı rayonuna səfərini əks etdirən videçarxın nümayişi ilə başa çatıb.

# “Blackboard” elektron təhsil sisteminin tətbiqi üzrə təlimlərin iştirakçılarına sertifikatlar təqdim olunub

***Oktyabrın 8-də Bakı Dövlət Universitetində “Blackboard” elektron təhsil sisteminin tətbiqi ilə bağlı təşkil edilən təlimləri iştirakçılarına sertifikatların təqdimedilmə mərasimi keçirilib.***

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, "Blackboard" - tədrisin idarəedilməsi proqramının istifadəsi BDU-da “Blackboard EdTech” ekosisteminə daxil olan “bulud platforması” vasitəsilə tələbələrin və müəllimlərin elektron məlumat bazasının yaradılması, tədris prosesinin və təhsilin məzmununun elektron idarəedilməsi, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə imkan yaradır. Rektor hibrid dərs modeli haqqında məlumat verib, bu sistemin BDU-da uğurla tətbiq edilməsindən söz açıb.




ADA Universitetinin tədris üzrə prorektoru Vəfa Kazdal “Blackboard” Azərbaycanın ADA Universiteti də daxil olmaqla, dünyanın bir çox universitetlərində istifadə edildiyindən bəhs edib. Bildirib ki, sistem universitetdə beynəlxalq təcrübənin tətbiqinə, e-təhsilin təkmilləşdirilməsinə və təhsil xidmətlərinin keyfiyyətinin artırılmasına şərait yaradır.

Rektorun strateji inkişaf və əlaqələr üzrə müşaviri Əli Nağıyev qeyd edib ki, “Blackboard” üçün mühüm yerli tərəfdaşlardan biri hesab edilən BDU-da şirkət tərəfindən təklif olunan xidmətlərin böyük əksəriyyəti tətbiq edilir.

"Blackboard" elektron təhsil sisteminin təlimçisi Basel Abu-Khiran qarşılıqlı əməkdaşlıqdan məmnunluğunu ifadə edib, yaradılan şəraitə görə Universitet rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra təlim iştirakçılarına sertifikatlar təqdim olunub, xatirə fotosu çəkilib.

# ADA Universiteti yeni təhsil proqramına başlayıb

***ADA Universiteti “Bir müəllimin manifesti” ixtisasartırma proqramına başlayıb. Oktyabrın 1-də ADA Universiteti milli təhsil sistemimizin başlanğıc nöqtəsi hesab olunan Qazax Müəllimlər Seminariyasının tarixi binası qarşısında tədbir keçirib.***

Tədbirdə Universitet “Bir müəllimin manifesti” ixtisasartırma proqramına hazırlıqların tamamlandığını və bu gündən etibarən Proqramın öz fəaliyyətinə başladığını elan edib.

Rektorların, Proqrama seçilən və regionlarımızı təmsil edən 40 iştirakçının, bölgələrimizdəki orta məktəb müəllimləri və direktorlarının iştirakı ilə keçirilən tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və ADA Universitetinin ABŞ-dakı Mərkəzinin prezidenti Qalib Məmməd çıxış ediblər.

Mərasim çərçivəsində ADA Universitetinin Fondu və tərəfdaşları arasında Qazax Müəllimlər Seminariyasının bərpa və yenidənqurma işlərini birgə həyata keçirmək məqsədilə Niyyət sazişi imzalanıb.

Sənədi Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin sədri Məhəmməd Abdullayev, “NEQSOL Holding”in baş direktoru Yusif Cabbarov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və ADA Universiteti Fondunun prezidenti Natiq Hacıyev imzalayıblar.

Sazişi imzalamaqla tərəflər Seminariyanın təlim-tədris ənənələrini yaşatmaq üçün onun binasının bərpasını öz üzərlərinə götürdüklərini bəyan ediblər.

Sonra “ADA Məclisi Qazaxda” mövzusunda panel müzakirə keçirilib. Müzakirədə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı, Milli Məclisin deputatı Nizami Cəfərov çıxış ediblər.

Rektor Hafiz Paşayev növbəti ilin sentyabr ayından etibarən Qazax Müəllimlər Seminariyasında dərslərin başlayacağını bildirib.

ADA Universitetinin Akademik işlər üzrə prorektoru Vəfa Kazdalın moderatorluğu ilə keçirilən panel müzakirə sual-cavab sessiyası ilə başa çatıb.

Seminariya binasının önündə başlayan tədbir Bakı Dövlət Universitetinin Qazax filialında yekunlaşıb.

Burada “Bir müəllimin manifesti” proqramının iştirakçılarının təlim keçməsi üçün nəzərdə tutulan və yeni təmir edilmiş sinif otaqları ilə tanışlıq olub.

Sözügedən birillik təhsil Proqramının əyani formatı Bakı Dövlət Universitetinin Qazax filialında (ilk ilində), ADA Universitetində və ADA Universitetinin Vaşinqton Mərkəzində təşkil olunacaq.

ADA Universiteti bu il “Bir müəllimin manifesti” təşəbbüsü ilə çıxış edərək, milli təhsil sistemimizin başlanğıc nöqtəsi hesab olunan Qazax Müəllimlər Seminariyasının təhsil missiyasını davam etdirəcəyini elan edib. Artıq memarlıq-tikinti işlərinə başlanılıb.

# BDU və Çexiyanın Cənubi Bohemiya Universiteti arasında əməkdaşlıq əlaqələri müzakirə olunub

***Oktyabrın 1-də Bakı Dövlət Universitetində Cənubi Bohemiya Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib***

Görüşdə BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, Elmi-təşkilati şöbənin müdiri Mətanət Musayeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Biologiya fakültəsinin dekan müavini Səbinə Ömərova, fakültənin dosenti Çingiz Məmmədov, Çexiya Ticarət Təşviqat Agentliyinin Azərbaycan nümayəndəliyinin rəhbəri Pavel Zelenka, Cənubi Bohemiya Universitetinin prorektoru Hojdekr Michal və Texnologiya transferi şöbəsinin müdiri Ruzena Stemberkova iştirak ediblər.

Görüşdə BDU və Cənubi Bohemiya Universiteti arasında təbiət elmləri sahəsində akademik əməkdaşlığın genişləndirilməsi, tələbələrin və akademik heyətin mübadiləsi, Cənubi Bohemiya Universitetinin texnologiyaların transferi sahəsində olan təcrübəsini BDU ilə bölüşməsi, həmçinin BDU-nun Çexiya universitetləri və şirkətləri ilə birgə elmi-tədqiqat layihələri üzərində çalışması, sonradan bu layihələrin kommersiyalaşdırılması perspektivləri müzakirə olunub. Həmçinin iki universitet arasında “Su bioehtiyatları və akvakultura” ixtisası üzrə magistratura pilləsində ikili diplom proqramının hazırlanması haqqında fikir mübadiləsi aparılıb.

# Filologiya fakültəsində TGT-nın təşkilatçılığı ilə Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbir keçirilib

Tədbirdə Filologiya fakültəsinin tələbəsi Lamiyə Hüseynova çıxış edərək müəllimlərin ölkəmizin tərəqqisində, cəmiyyətimizin maariflənməsində əvəzsiz rolundan bəhs edib, gənclərin həm bilikli, həm də vətənpərvər vətəndaş kimi formalaşmasında müəllimlərin fədakar əməyindən danışıb.

Daha sonra Filologiya fakültəsinin 3-cü kurs tələbəsi Xanım Əhmədzadə şəhid müəllim Famil Əhmədzadənin həyat yolu haqqında çıxış edib, Azərbaycan müəllimlərinin istər birinci Qarabağ savaşında, istərsə də 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzün bərpa olunması uğrunda həm ön, həm də arxa cəbhədə fəal iştirak etmələrindən bəhs edib.

Tədbirdə Filologiya fakültəsi 2-ci kurs tələbəsi Səma Məmmədova, Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının sədr müavini Elnurə Ağasəfzadə çıxış edərək Beynəlxalq Müəllimlər Gününün tarixindən və bu əlamətdar günün qeyd olunmasının əhəmiyyətindən söhbət açıblar.

# Universitetdə İraq səfirliyinin nümayəndə heyəti ilə görüş keçirilib

Oktyabrın 19-da Bakı Dövlət Universitetində İraq səfirliyinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Şərqşünaslıq fakültəsinin dekan müavini Tərlan Məlikov, İraq səfirliyinin birinci katibi Hüzeyfə Ziyad Mahmud və səfirliyin əməkdaşı Pərviz Əfəndiyev iştirak ediblər.

BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov ölkədə son illərdə Universitetdə görülən işlərdən və aparılan islahatlardan, əldə olunan nəticələrdən danışıb. BDU-da tələbələrin bilik və bacarıqlarını artırması üçün hər cür şərait yaradıldığını qeyd edən prorektor ölkəmizdə elm, təhsil sahəsində nailiyyətlərdən söz açıb. Göstərilən qonaqpərvərliyə görə Universitet rəhbərliyinə minnətdarlığını bildirən Hüzeyfə Ziyad Mahmud BDU ilə əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını ifadə edib. Eyni zamanda qonaq BDU-da daha çox İraqlı tələbəni görmək istədiklərini vurğulayıb.

Görüşdə ikitərəfli əməkdaşlığın gələcək perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# “Zəfər Günü”nə həsr olunmuş Beynəlxalq elmi konfrans

***Oktyabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Vətən müharibəsində qələbənin bir illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilib.***

Elmi konfrans Vətən müharibəsi şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfransın moderatoru Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri, professor Ziyafət Əsgərov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində tarixi Qələbəsindən bəhs edib. Bildirib ki, Azərbaycan ordusunun Ermənistan üzərində qələbəsi regionda sülhün, sabitliyin və inkişafın təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Döyüş meydanında ordumuzun əldə etdiyi misilsiz qələbələrlə yanaşı, ölkə rəhbərinin bu həssas və taleyüklü günlərdə apardığı diplomatik mübarizə, dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələr də Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Professor Z.Əsgərov Qarabağ münaqişəsinin həllində beynəlxalq təşkilatların səmərəsiz fəaliyyətindən də söz açıb.



BDU-nun rektoru Elçin Babayev dünya hərb tarixinə qızıl hərflərlə yazılan, haqqında əsrlərlə danışılacaq 44 günlük Vətən müharibəsinin ilk anlarından müzəffər Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar sayəsində düşmənin müdafiə xəttinin yarıldığını, düşmənin böyük itkilər verərək geri çəkilməyə məcbur olduğunu xatırladıb. Bildirib ki, ildırımsürətli müharibə planı ilə hərəkət edən peşəkar, cəsur Azərbaycan ordusu döyüşlərin başladığı ilk gündən strateji Murov zirvəsində, Füzulidə, Cəbrayılda, sonrakı günlərdə isə Suqovuşanda, Hadrutda, Xocavənddə, Zəngilanda, Qubadlıda üçrəngli bayrağımızı ucaltdı. Noyabr ayının 8-də Qarabağın ürəyi Şuşanın azad olunması ilə Ali Baş Komandanımızın rəhbərlik etdiyi müzəffər ordumuz düşməni növbəti dəfə böyük məğlubiyyətə uğratdı və onu kapitulyasiya aktını imzalamağa məcbur etdi. Bununla da Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin olundu, 30 illlik müharibə ölkəmizin parlaq qələbəsi ilə başa çatdı.



Rektor Elçin Babayev sitat gətirərək bildirib ki, bu qələbə xalqımızın tarixində qazanılmış ən böyük qələbə, ən uca zəfərdir. Adı dünya hərb tarixinə qızıl hərflərlə yazılan Müzəffər Ali Baş Komandanımız 44 günlük Vətən Müharibəsi ilə bütün dünyaya cəsarətli və eyni zamanda ədalətli müharibə aparmağın örnəyini göstərdi, müzəffər ordumuzun yalnız işğalçı qüvvələrlə döyüşdüyünü, hər cür təxribatlara baxmayaq, heç bir halda mülki əhalini hədəf seçmədiyini nümayiş etdirdi.

Konfransa videobağlantı ilə qoşulan Ankara Universitetinin professoru Cavid Abdullazadə, Ukraynanın Odessa Universitetinin professoru Arif Quliyev geniş məruzə ilə çıxış etmişdir.

Daha sonra BDU-nun Hüquq fakültəsinin professoru Əmir Əliyev, Hüquq fakültəsinin dosenti, Milli Məclisin üzvü Bəhruz Məhərrəmov, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dosenti Kərəm Məmmədov çıxışlarında Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, qətiyyəti, ordumuzun əzmi sayəsində tariximizin ən parlaq və unudulmaz zəfərlərindən birini yaşaması, müzəffər Azərbaycan Ordusunun qüdrəti, yenilməz Azərbaycan əsgərinin qəhrəmanlığı, Türkiyə-Azərbaycan dostluq və qardaşlığından bəhs ediblər. Məruzələrdə qeyd edilib ki, 30 ildə ölkəmizdə baş vermiş hadisələrin politoloji təhlili Azərbaycanın bugünkü nailiyyətlərinin, eyni zamanda bu günkü şanlı qələbəmizin təməlində əsası 1993-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz xalq-iqtidar birliyi dayandığını deməyə əsas verir.

# BDU VII Beynəlxalq Kitab Sərgi-Yarmarkasında iştirak edib

***Oktyabrın 6-da Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində VII Bakı Beynəlxalq kitab sərgisi başlayıb. Artıq ənənəvi hal alan builki beynəlxalq kitab sərgisi dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunub.***

Sərgidə Bakı Dövlət Universiteti öz nəşrlərini, son üç ildə çap olunmuş kitab və jurnallarını nümayiş etdirib. 300 addan çox kitabla təmsil olunan BDU-nun stendində Universitetin professor-müəllim heyətinin müəllifi olduğu və beynəlxalq nəşriyyatlarda çap edilən kitablar da sərgilənib.





Sərginin açılış mərasimindən sonra çoxsaylı oxucular, məktəblilər və tələbələr, dövlət və ictimai xadimlər, elm, incəsənət və mədəniyyət nümayəndələri BDU-nun stendində sərgilənən nəşrlərlə tanış olublar. Stenddə ziyarətçilərə BDU və BDU-nun nəşriyyat və mətbəəsi, Elmi Kitabxanası haqqında tanıtım çarxları nümayiş olunub.

Qeyd edək ki, VII Beynəlxalq kitab sərgisində 100-dək yerli nəşriyyat, kitab evi, kitabxana, həmçinin bir sıra xarici ölkələrin nəşriyyat və kitabxanaları öz nəşrlərini nümayiş etdirib. Sərginin əsas məqsədi cəmiyyətdə kitaba olan marağı artırmaq və mütaliə mədəniyyətini təbliğ etmək, oxucuları nəşriyyat işi sahəsində olan rəqəmsal yeniliklərlə tanış etmək, ölkəmizdə kitab sənayesi sektorunun inkişafını dəstəkləmək, eyni zamanda kitab nəşri sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, müəllif-nəşriyyat əlaqələrini möhkəmləndirməkdir.

Sərgi oktyabrın 10-dək davam edib.

# BDU-nun rektoru şəhid ailələrinin üzvləri olan tələbələrlə görüşüb

***Oktyabrın 27-də Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev şəhid ailələrinin üzvləri olan - Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbəsi Zeynəb Bədəlova və Şərqşünaslıq fakültəsinin tələbəsi Aysu Əmrahova ilə görüşüb.***

Rektor Elçin Babayev görüşdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində möhtəşəm qələbəsindən söz açaraq BDU-nun şəhidlik zirvəsinə ucalan 19 nəfər şəhid məzunu haqqında danışıb. Əbədiyyətə qovuşan bütün qəhrəman şəhidlərimizin xatirəsinin daim uca tutulacağını, xalqımızın öz qəhrəman şəhidləri ilə qürur duyduqlarını ifadə edib.

Rektor həmçinin şəhid ailələrinin üzvü olan tələbə-gənclərin təhsili, qayğıları ilə maraqlanıb, onlara təhsillərində uğurlar arzulayıb.

Qeyd edək ki, Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbəsi Zeynəb Bədəlovanın həyat yoldaşı baş leytenant Valeh Bədəlov Vətən müharibəsində Kəlbəcər istiqamətində gedən döyüşlərdə, Şərqşünaslıq fakültəsinin tələbəsi Aysu Əmrahovanın atası Saməddin Əmrahov Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Hər iki şəhid qəhrəmanlarımız Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə orden və medallarla təltif olunublar.



# BDU-nun tələbələri şəhid Ceyhun Şalıyevin məzarını ziyarət ediblər

**Oktyabrın 1-də Bakı Dövlət Universitetinin tələbələri Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış, Hüquq fakültəsinin məzunu Ceyhun Şalıyevin ildönümündə ailəsi ilə görüşüb, məzarını ziyarət ediblər.**

Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Hüquq fakültəsinin dekan müavini Aytəkin İbrahimova, Cinayət hüququ və kriminologiya kafedrasının müdiri Şəhla Səmədova, BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hacıbaba Mustafayev, şəhid Ceyhun Şalıyevin tələbə yoldaşı, fakültənin akademik məsləhətçisi Nuray Əliyeva və Tələbə Gənclər Təşkilatının fəal üzvləri iştirak ediblər. Ziyarətdə çıxış edənlər Ceyhun Şalıyevin Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Ceyhun Şalıyevin həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı qeyd olunub.



Sonra şəhidin ailə üzvləri və yaxınları ilə birgə məzarı ziyarət olunub, önünə gül dəstələri düzülüb, ruhuna dualar oxunub.

Qeyd edək ki, Ceyhun Şalıyev 2011-2015-ci illərdə BDU-nun Hüquq fakültəsində təhsil alıb, 2016-cı ildə Aprel döyüşlərində iştirak edib. 2020-ci ildə Ceyhun könüllü olaraq ordu sıralarına yazılıb, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına döyüşüb. Oktyabrın 1-də qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

# Tələbələrimiz Ucar rayonunda şəhid Kənan Məmmədovun məzarını ziyarət ediblər

***Oktyabrın 4-də Bakı Dövlət Universitetinin tələbələri Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış, Filologiya fakültəsinin məzunu Kənan Niftalı oğlu Məmmədovun ildönümündə Ucar rayonunun Alpout kəndində yaşayan ailəsi ilə görüşüb, məzarını ziyarət ediblər.***

Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov, fakültənin akademik məsləhətçisi Natəvan Əliyeva və tələbələr iştirak ediblər. Ziyarətdə çıxış edənlər Kənan Məmmədovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını, onun qəhrəmanlığının tələbə gənclərə nümunə olduğunu bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Kənan Məmmədovun həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı vurğulanıb.



Sonra şəhidin ailə üzvləri və yaxınları ilə birgə məzarı ziyarət olunub, məzarı önünə gül dəstələri düzülüb, ruhuna dualar oxunub.

Qeyd edək ki, Kənan Məmmədov 2013-2017-ci illərdə BDU-nun Filologiya fakültəsində təhsil alıb, 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına vuruşaraq 2021-ci il oktyabrın 2-də Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

# BDU-nun bir qrup kollektivi Masallı rayonunda şəhid Nurlan Əbilovun məzarını ziyarət edib

***Oktyabrın 21-də Coğrafiya fakültəsinin bir qrup kollektivi Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış, Coğrafiya fakültəsinin 2020-ci il məzunu Nurlan Əbilovun Masallı rayonunun Şərəfə kəndində yaşayan ailəsi ilə görüşüb, məzarını ziyarət edib. Şəhidin ailə üzvləri və yaxınları ilə birgə onun məzarı ziyarət olunub, ruhuna dualar oxunub.***






Coğrafiya fakültəsinin dekanı Şəkər Məmmədova Nurlan Əbilovun Vətən torpağı uğrunda düşmənə qarşı mərdliklə vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını vurğulayıb, onun əziz xatirəsinin ürəklərdə daim yaşayacağını bildirib.

Ziyarətdə çıxış edənlər Nurlan Əbilovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını, onun qəhrəmanlığının tələbə gənclərə nümunə olduğunu bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Nurlan Əbilovun həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı vurğulanıb.

Sonda Nurlan Əbilovun oğlu atası haqqında "Şəhid oğluyam" adlı şeir söyləyib.

*Allah şəhidlərimizə rəhmət eləsin!*

# Hüquq fakültəsində şəhid ailələri və Vətən müharibəsi qaziləri ilə görüş keçirilib

***Oktyabrın 21-də Hüquq fakültəsinin təşkilatçılığı ilə şəhid ailələri və Vətən müharibəsi qaziləri ilə görüş keçirilib.***



Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət Himni səsləndirilib.

Daha sonra Vətən müharibəsində qazandığımız şanlı qələbəmizə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Hüquq fakültəsinin dekan müavini Aytəkin İbrahimovanın moderatorluğu ilə keçirilən tədbiri fakültənin dekan vəzifəsini icra edən Cabir Quliyev açıq elan edib, Vətən müharibəsində şəhid olan Universitet məzunları və tələbələrinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin əhəmiyyətindən bəhs edib. O, şəhid ailələri və qazilərin dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu qeyd edib.

Professor Əmir Əliyev torpaqlarımızın düşməndən azad edilməsində əsl qəhrəmanlıq göstərən şəhid övladlarımızın xatirəsinə və qazilərə öz ehtiramını bildirib. Onların əsl vətənpərvərlik nümayiş etdirərək 30 il işğal altında olan torpaqlarımızın 44 gün ərzində yağı düşməndən azad edilməsində böyük fədakarlıq göstərdiklərini vurğulayıb.

Mülki hüquq kafedrasının müdiri Məhəbbət Dəmirçiyeva, Cinayət hüququ və kriminologiya kafedrasının müdiri Şəhla Səmədova, Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının dosenti Novruz Mehdiyev, Mülki proses və kommersiya hüququ kafedrasının dosenti Əsmər Əliyeva, fakültənin məzunu, şəhid Ceyhun Şalıyevin xalası Rəna Məmmədova çıxış edərək Vətən müharibəsində qazandığımız şanlı qələbədən danışıblar. Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməklə 30 illik Vətən həsrətinə son qoyduqlarını xüsusi vurğulayıblar. Vətən müharibəsi qaziləri fakültənin məzunları Qafar Nəzərov, Şamil Abbasov, Ağadadaş Dadaşzadə, Toğrul Kazımlı, Kənan Qureyişov, fakültənin tələbəsi Şamo İsmayılbəyli keçdikləri döyüş yolundan bəhs edib, universitet və fakültə rəhbərliyinin onlara göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonda fakültənin II kurs tələbəsi Cavid Mirzəzadə fakültə tələbələrinin adından çıxış edib, müəllifi olduğu "Bayraq" şeirini səsləndirib.

# “BDU Vətən müharibəsi dövründə” sənədli filmi təqdim olundu





***Oktyabrın 29-da Jurnalistika fakültəsinin Tədris tele-radio studiyasının (BDU TV) hazırladığı “Bakı Dövlət Universiteti Vətən müharibəsi dövründə” sənədli filminin təqdimat mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ərazi bütövlüyümüzün qorunması, bərpası, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qeyd olunub ki, 44 günlük Vətən müharibəsi xalqımız dəmir yumruq kimi birləşərək, Xalq-Ordu birliyini nümayiş etdirib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuz düşmən üzərində möhtəşəm qələbə qazanıb, 30 ilə yaxın işğal altında qalan əzəli torpaqlarımız azad olunub. Vətən müharibəsində BDU-nun yüzlərlə tələbə və məzunu ordumuzun sıralarında qəhrəmancasına döyüşüb, 19 tələbə və məzunumuz şəhidlik zirvəsinə ucalıb. BDU kollektivi informasiya cəbhəsində fəal iştirak edib.

BDU-da 44 günlük Vətən müharibəsində şəhid, qazi tələbə və məzunlara diqqət, qayğı göstərilməsi istiqamətində Tədbirlər Planı hazırlanıb. Tədbirlər Planına uyğun olaraq, Jurnalistika fakültəsinin Tədris tele-radio studiyası (BDU TV) “Bakı Dövlət Universiteti Vətən müharibəsi dövründə” sənədli filmini ərsəyə gətirib. Sənədli filmin hazırlanmasında əsas məqsəd BDU-nun şəhid məzunlarının əziz xatirəsini yaşatmaq, onların şərəfli döyüş yolunu yaddaşlara əbədi həkk etmək, tələbə gənclər arasında təbliğ etmək, eyni zamanda universitetin Vətən müharibəsi dövründəki fəaliyyətinə nəzər yetirməkdir.

Daha sonra sənədli film tədbir iştirakçılarına nümayiş olunub.

Filmin təqdimatından sonra BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Vətən müharibəsində qazanılan parlaq qələbənin ölkənin uğurlu inkişafının nəticəsi olduğunu vurğulayaraq Azərbaycanın bu möhtəşəm zəfəri Ali Baş Komandanın müdrik qərarları, rəşadətli ordumuzun gücü və xalqımızın sarsılmaz həmrəyliyi sayəsində qazandığına diqqət çəkib. Natiq informasiya müharibəsində, haqq səsimizin beynəlxalq aləmə çatdırılmasında, sağlam, bilikli və vətənpərvər gənclərin yetişdirilməsində daim öz töhfəsini verən BDU-da həyata keçirilən layihələr, Azərbaycanın məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair beynəlxalq hesabat və Vətən müharibəsində medianın fəaliyyətinə həsr olunmuş layihələr haqqında məlumat verib. Filmin hazırlanmasında iştirak edən müəllim və tələbələrə təşəkkürünü bildirib.

Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Cahangir Məmmədli, dekan müavini Sevinc Əliyeva, BDU-nun məzunu Qarabağ qazisi Pərviz Aslanov çıxış edərək Universitet rəhbərliyinin və kollektivinin 44 günlük Vətən müharibəsindəki fəaliyyəti və film haqqında təəssüratlarını bölüşüblər.

Sonda Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev sənədli filmin hazırlanması prosesindən danışıb, filmin çəkilişində iştirak edən tələbələrə təşəkkür edib.

# “İƏT xarici işlər nazirlərinin Beynəlxalq simulyasiya Regionda sülhün qorunması: Qarabağın yenidən qurulması” mövzusunda konfrans keçirilib

***Bakı Dövlət Universitetində İslam Əməkdaşlıq Gənclər Forumu (İƏT Gənclər Forumu) və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə “Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti” çərçivəsində İƏT Modeli - Xüsusi Sessiya, “İƏT xarici işlər nazirlərinin Beynəlxalq simulyasiya Regionda sülhün qorunması: Qarabağın yenidən qurulması” mövzusunda konfrans keçirilib.***



Konfransı İƏT Gənlər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin baş direktoru səlahiyyətlərini icra edən Vüsal Qurbanov açaraq gənclərin konfrans zamanı bilik və təcrübələrini öz aralarında bölüşməklə diplomatik bacarıqlarını artıracaqlarını vurğulayıb. Əlavə edib ki, əldə ediləcək təcrübə yaxın gələcəkdə ölkələri ni təmsil edəcək diplomatların və liderlərin formalaşmasına öz töhfəsini verəcək. Daha sonra İƏT Gənclər Forumunun Gənclər siyasəti, təlim və tədris departamentinin direktoru Tuğba Ceren Çerçi çıxışında gənclərə gələcək diplomatik fəaliyyətlərində uğurlar arzulayıb.

Konfransda İƏT Xarici İşlər Nazirləri Şurasının işinin simulyasiyasında 6 ölkədən 30 istedadlı gənc iştirak edib. Onlar Qarabağ bölgəsində davamlı sülh sazişini fəal müzakirə edərək, mövzu ilə bağlı öz fikirlərini bildiriblər. Qəbul edilən qərarlarda Azərbaycan Respublikasının işğaldan azad olunmuş əraziləri və “ağıllı şəhər”, “ağıllı kənd”lə bağlı planlar özünü əks etdirir. Eləcə də bu qərarlar İƏT-ə üzv dövlətləri məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə dərhal və təhlükəsiz qayıtmasını təmin etmək üçün aparılan yenidənqurma və minalardan təmizləmə proseslərində iştiraka çağırır. Azərbaycan hökumətinin və xalqının öz ölkəsini müdafiə etmək üçün gördüyü səylərə dəstəyi ilə tam həmrəyliyini bir daha təsdiq edir.

Konfransda xüsusi bilik və bacarığı ilə fərqlənən 5 iştirakçı Azərbaycan İnvestisiya və Mədəniyyət Sammitində iştirak və Qarabağa səfər etmək fürsəti əldə edəcək. Onlar arasında BDU-nun tələbələri Səid Omanov və Musa K. Ceesay Fəxri fərmana layiq görülüb. Qaliblər və tədbirin yekun sənədi olan İƏT Modeli bəyannaməsi bu ilin 27-29 oktyabr tarixlərində keçirilməsi planlaşdırılan “Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti”nin müvafiq panel sessiyasından sonra iştirakçılara elan ediləcək.

# “Paşa Həyat Sığorta” BDU-da növbəti təlim keçirib



***Oktyabrın 29-da Bakı Dövlət Universiteti və “PAŞA Həyat Sığorta” ASC arasında gənclərin peşəkar inkişafına yönəldilmiş tədbirlərin təşkilinə dair Sazişə uyğun olaraq tələbə və magistrlər üçün növbəti təlim keçirilib.***

Tədbiri giriş sözü ilə açan Karyera və məzunlarla əlaqə sektorunun əməkdaşı İlkin Şərifov qeyd edib ki, təlimin təşkil edilməsində əsas məqsəd iqtisadi sahədə təhsil alan tələbələrin sığorta sahəsinə olan maraqlarını, həmçinin bu sahədə bilik və bacarıqlarını daha da artırmaqdır. Təlimlərin nəticəsi olaraq, həyat sığortası ilə maraqlanan və bu sahədə işləmək arzusunda olan tələbə və magistrantlar gələcəkdə PAŞA Həyat Sığorta ASC-də uzunmüddətli təcrübə keçmək şansı da əldə edəcəklər.

Sonra “Paşa Həyat Sığorta” şirkətinin əməkdaşları Vüsalə Həsənova və Nərmin Salmanova "CV hazırlanması və iş müsahibəsində uğurlu olmaq üzrə tövsiyələr” mövzusunda təlim proqramını təqdim ediblər. Təqdimatda tələbələrə CV yazma üsulları, müsahibədə davranış qaydaları və müsahibəyə psixoloji hazırlıq barədə məsləhətlər verilib. Bundan başqa, holdinqdə tətbiq olunan müxtəlif marketinq metod və strategiyaları barədə məlumat verilib, əyani olaraq seminar iştirakçılarına nümayiş etdirilib. Təlimin yeni formalaşmaqda olan yerli həyat sığortası bazarında sığortaçı-müştəri münasibətlərinin qurulmasında və inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

Qeyd edək ki, “PAŞA Həyat Sığorta” ASC 2011-ci ilin fevral ayından fəaliyyət göstərir. Kapitallaşma səviyyəsinə və biznes göstəricilərinə görə şirkət həyat sığortası bazarının lideridir.

# Akademik Vasim Məmmədəliyevin anım günü ilə bağlı dəyirmi masa keçirilib

***Oktyabrın 15-də Şərqşünaslıq fakültəsində görkəmli ərəbşünas-alim, Ərəb filologiyası kafedrasının müdiri, mərhum akademik Vasim Məmmədəliyevin anım günü keçirilib. Şərqşünaslıq fakültəsinin professor-müəllim heyəti və tələbələr akademik Vasim Məmmədəliyevin məzarını ziyarət edib, məzarı önünə gül dəstələri qoyub, ruhuna dualar oxuyublar.***



Ziyarətdən sonra alimin anım günü ilə bağlı dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə Ərəb filologiyası kafedrasının professoru Elxan Əzizov açaraq, Vasim müəllimin həyat və fəaliyyəti barədə geniş məlumat verib, onun fundamental biliklərə, qeyri-adi dil bacarığına malik olmuş görkəmli bir alim olmasından söz açıb. Ölkə müstəvisində və Şərq ölkələrində alimə verilən qiymətdən, o cümlədən Şərqşünaslıq fakültəsinin inkişafına verdiyi töfhələrdən, kadr potensialının hazırlanmasında uzun illər göstərdiyi xidmətdən danışıb.

Ərəb filologiyası kafedrasının dosenti Vüqar Qaradağlı mərhum akademikin təkcə ərəb dili deyil, şərqşünaslıqla bağlı bütün sahələrdə böyük biliyə malik olması, fars dilinin mahir bilicisi, poeziya və muğamın dərinliklərindən məlumatlı olması barədə danışıb. Ərəbşünaslıqda açdığı yolla yanaşı, dəyərli insan, səmimi və mehriban xarakterə malik olmasını qeyd edib.

Fakültənin tədris işləri üzrə dekan müavini Tərlan Məlikov alimin sonuncu yetirməsi kimi Vasim müəllimin rəhbərliyi ilə yerinə yetirdiyi dissertasiya işi və ərəb dili sahəsində azərbaycanca ilk lüğətin hazırlanmasından söz açıb.

Elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə Vasim müəllimin Azərbaycan mədəniyyəti, incəsənəti, hətta mətbəxini dərindən bilməsini, daim öz məsləhətləri ilə insanlara dəstək və arxa olması, elmdə olduğu kimi, ictimai proseslərdə də seçilməsindən danışıb.

Sonra Ərəb filologiyası kafedrasının müəllimi Mais Ağaverdiyev, İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmədova və Vasim müəllimin dərs dediyi, magistrant Nemət Məmmədov alimlə bağlı öz xatirələrini bölüşüb.

# Akademik Məhəmməd Mehdiyevin 80 yaşı tamam olur

***Oktyabrın 2-də tanınmış alim, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı Məhəmməd Mehdiyevin 80 yaşı tamam olur.***



Məhəmməd Fərman oğlu Mehdiyev 1941-ci ildə Laçın rayonunun Təzəkənd kəndində anadan olub. 1961-ci ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Mexanika-riyaziyyat fakültəsinə daxil olub. Universiteti bitirdikdən sonra aspiranturada təhsilini davam etdirib. 1970-ci ildə təyinatla AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi vəzifəsində əmək fəaliyyətinə başlayıb. Sonralar həmin elmi müəssisənin baş elmi işçisi, şöbə müdiri, Xüsusi Konstruktor Bürosunun elmi işlər üzrə direktor müavini olub. 1991-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətə başlayıb. 2002-2018-ci illərdə Tətbiqi analizin riyazi üsulları kafedrasının müdiri olub. 2008-ci ildən Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanıdır.

1975-ci ildə Rostov Dövlət Universitetində "Konik örtük və dəyişən qalınlıqlı dairəvi lövhə üçün üçölçülü gərginlik-deformasiya vəziyyətin asimptotik təhlili" mövzusunda namizədlik, 1989-cu ildə Leninqrad Dövlət Universitetində "Örtüklər üçün elastikiyyət nəzəriyyəsinin bəzi fəza məsələlərinin asimptotik təhlili" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. 1994-cü ildə professor elmi adını alıb, 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib.

Akademik M.Mehdiyev bərk cisim mexanikası sahəsində görkəmli mütəxəssisdir. Elastikiyyət nəzəriyyəsində yeni "bircins həllər" metodu onun tərəfindən işlənib hazırlanıb. Bu metodun köməyi ilə örtük və lövhələr üçün elastikiyyət nəzəriyyəsinin üçölçülü məsələsindən ikiölçülü məsələyə keçid problemi öyrənilib, örtük və lövhələrin klassik nəzəriyyəsinin tətbiq olunma oblastı müəyyən edilib. Örtük və lövhələrin yeni tətbiqi nəzəriyyəsi verilib. İmpuls təsirli determinik oyunlarda yəhərvari nöqtənin varlığı üçün zəruri şərtlər tapılaraq həmin şərtlərin zəruri və kafi olduğu siniflər müəyyən edilib, qeyri-lokal şərtli optimal idarəetmə məsələsində optimallıq üçün birinci və ikinci tərtib zəruri şərtlər alınıb. Son illərdə akademik və onun tələbələri tərəfindən anizotropik örtüklərin ümumi nəzəriyyəsi yaradılıb və onun əsasında mövcud texniki nəzəriyyələrin tətbiq olunma oblastları müəyyən edilib.

Akademik M.Mehdiyev "AMEA-nın xəbərləri" (Mexanika buraxılışı) jurnalının redaksiya heyətinin üzvü və "Bakı Dövlət Universitetinin Xəbərləri" (Fizika-riyaziyyat seriyası) jurnalının baş redaktorunun müavinidir.

Onun rəhbərliyi ilə 20 elmlər namizədi, 2 elmlər doktoru hazırlanıb. 140 elmi əsərin, o cümlədən 4 monoqrafiya, 5 dərslik və dərs vəsaitinin müəllifidir.

Akademik M.Mehdiyev riyaziyyat və mexanika elminə verdiyi töhfələrə görə 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. 2019-cu ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Akademik Məhəmməd Mehdiyevi 80 illik yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, Azərbaycan elminin və təhsilinin inkişafı naminə gələcək fəaliyyətində yeni uğurlar arzulayırıq.

# Böyük alim, mahir pedaqoq, gözəl insan...

***Niftalı Mehrəli oğlu Qocayev 1936-cı il oktyabrın 18-də keçmiş Ermənistan SSR-in Dilican rayonunun Salah kəndində anadan olmuşdur. 1953-cü ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə daxil olmuşdur.*** 1958-ci ildə ADU-nun fizika fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra elmi fəaliyyətini davam etdirmək üçün Molekulyar fizika kafedrasında saxlanılmışdır. Bir il işlədikdən sonra keçmiş Sovetlər İttifaqı Elmlər Akademiyasının Sankt-Peterburqda yerləşən "Yüksək Molekullu Birləşmələr İnstitutunun" aspiranturasına daxil olmuş, akademik M.V.Volkenşteynin elmi rəhbərliyi altında molekulyar biofizikanın mühüm problemlərindən olan nuklein turşularının quruluş-funksiya əlaqələri üzrə tədqiqat işləri apararaq dezoksiribonuklein turşusu molekulunun reduplikasiyasının termodinamik və kinetik məsələlərinin həllinə dair mühüm elmi nəticələr almışdır.



Namizədlik dissertasiyası üzərində tədqiqatlarını tamamlayaraq müvəffəqiyyətlə müdafiə etmiş gənc alim vətənə qayıdaraq məzunu olduğu Azərbaycan Dövlət (indiki Bakı Dövlət) Universitetinin molekulyar fizika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlamışdır. "Optika və molekulyar Fizika" kafedrasında baş laborant vəzifəsindən professor (1979-cu il) rütbəsinədək yüksələn N.M.Qocayev həmin kafedraya 16 il rəhbərlik etməklə tədrisin təşkili, dərslik və dərs vəsaitlərinin yazılması və kadr hazırlığı sahələrində səmərəli fəaliyyət göstərmişdir.

N.M.Qocayevin elmi-pedaqoji fəaliyyətinin bariz nümunəsi kimi fizika fakültəsi tələbələri üçün "Ümumi fizika kursu"nun mexanika, molekulyar fizika və optika bölmələri üzrə yazdığı dərslikləri göstərmək olar. Onun 1977-ci ildə rus dilində yazdığı böyük həcmli (432 səhifəlik) "Optika" kitabı keçmiş SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən universitetlərin fizika ixtisası üzrə dərs vəsaiti olaraq tövsiyə olunmaqla Moskvada "Vıssaya şkola" nəşriyyatı tərəfindən nəşr edilmişdir. O, həmçinin bir çox monoqrafiya və dərs vəsaitlərinin müəllifidir, bir neçə dərslikləri və elmi-populyar kitabları ruscadan azərbaycan və türk dillərinə çevirmişdir.

Professorun təşkilatçılıq və elmi uğurları sayəsində "SSRİ Nazirlər Soveti yanında Elm və Təhsil komitəsi" tərəfindən 1980-ci ildə birbaşa onun elmi rəhbərliyi ilə "Molekulyar Biofizika Elmi-tədqiqat Problem Laboratoriyası" yaradılmışdır. Onun rəhbərliyi ilə bu laboratoriyada 27 namizədlik və 7 doktorluq dissertasiya işləri yerinə yetirilərək müvəffəqiyyətlə müdafiə olunmuşdur.

Prof. N.M.Qocayevin apardığı elmi-tədqiqat işlərinin bir önəmi də ondan ibarətdir ki, həmin işlər Respublikamızın mötəbər elmi nəşrləri ilə yanaşı Rusiya Federasiyasında nəşr olunan "Bioorqaniçeskaya ximya", «Biofizika», «Jurnal strukturnoy ximii», «Molekulərnaya biologiya», xarici ölkələrdə nəşr olunan "Studia Biophysica", "Jurnal of Spectroscopy Letters", "Turkish Journal of Chemistry", "Journal of Molecular Structure", "Journal of Protein and Peptide Research", "Journal Peptide Sciences", "Journal of Protein and Peptide Letters", "Cryst.Eng.Comm." və digər mötəbər jurnallarda dərc olunmuş, beynəlxalq simpozium, qurultay və konfranslarda məruzə edilmişdir.

N.Qocayevin yüksək təşkilatçılıq qabiliyyətinin ən gözəl nümunələrindən biri də onun təşəbbüsü və rəhbərliyi ilə yaradılmış Azərbaycan Biofizika Cəmiyyətidir. O, bu gün də Azərbaycan Biofizika Cəmiyyətinin Prezidenti olaraq elmə, onun inkişafına və Azərbaycan elminin dünya elminə inteqrasiyası işinə fədakarlıqla xidmət etməkdədir.

Prof. N.M.Qocayev pedaqoji fəaliyyətini Optika və molekulyar fizika kafedrasında davam etdirir, Bakı Dövlət Universitetinin Fizika Problemləri elmi-tədqiqat institutunun "Biofizika" şöbəsində isə onun rəhbərliyi altında boifizikanın müxtəlif sahələri üzrə yüksək səviyyəli elmi-tədqiqat işləri aparılır.

Bu sətirlərin müəllifi də daxil olmaqla hazirda Niftalı müəllimlə birlikdə böyük həvəslə elmi-tədqiqat işləri aparan və pedaqoji fəaliyyət göstərən bütün tələbələri əziz müəllimizə möhkəm can sağlığı, xöşbəxt ömür, gələcək elmi və pedaqoji fəaliyyətlərində böyük uğurlar və yeni-yeni nailliyyətlər arzulayırlar.

***Namiq Əhmədov,***
*Fizika Problemləri İnstitutunun Biofizika şöbəsinin müdiri, professor*

# "Jurnalların idarə olunması və əsas redaktor bacarıqları" mövzusunda seminar

***Oktyabrın 6-da Bakı Dövlət Universitetində "Jurnalların idarə olunması və əsas redaktor bacarıqları" mövzusunda seminar keçirilib.***

Seminarı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin rəhbəri Mais Süleymanov keçirilən seminarın əhəmiyyətindən danışıb, belə tədbirlərin Universitetdə yüksək keyfiyyətli jurnalların nəşr olunmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

"Jurnalların idarə olunması və əsas redaktor bacarıqları" mövzusunda təqdimatla çıxış edən Q1 kateqoriyalı 2.259 impakt faktorlu "Historical Biology (An International Journal of Paleobiology)" jurnalının baş redaktoru Garez Dayk elmi jurnalların işinin təşkili məsələlərinə toxunub, beynəlxalq səviyyəli elmi jurnalın formalaşdırılması, inkişaf etmiş ölkələrdə elmi nəşrin beynəlxalq səviyyədə tanıdılması, elmi əsərlərin keyfiyyətinin artırılması kimi məsələlərlə bağlı məlumat verib. Elmi tədqiqatçıların, jurnalların və qurumların fəaliyyətlərinin qiymətləndirilməsi, elmi biliklərin analizində bibliometrik göstəricilər və istinadlardan geniş istifadə olunduğunu deyən G.Dayk bu məlumatların xüsusi istinad verilənləri bazasında toplanılaraq təyinatına görə emal olunduğunu qeyd edib. İstinad indeksi adlandırılan həmin analitik-informasiya sistemlərinin təyinatı, bibliometrik və elmmetrik tədqiqatlarda bu sahədə tanınmış mövcud sistemlərdən Web of Science və Elsevier-in Scopus bazalarını nümunə göstərib. G.Dayk jurnalların impakt faktorlarının akademik və iqtisadi-sosial formalarının əhəmiyyətindən danışıb, veb səhifələrinin əlçatanlığının vacibliyini qeyd edib.



G.Dayk elmi məqalələrin yazılmasına, onların düzgün strukturunun qurulmasına və nüfuzlu elmi jurnallarda çapa hazırlanmasına dair məsələlərdən bəhs edib. Təqdimatda Jurnalda anonim (double- blind) rəy prosesindən istifadə olunduğu, müəllifin (müəlliflərin) şəxsi məlumatlarının rəyçiyə açıqlanmadığı, rəyçinin şəxsi məlumatlarının müəllifə/müəlliflərə açıqlanmadığı bildirib. Seminarda materialların nəşrə hazırlaması prosesində nəşr etikasının gözlənilməsinin əhəmiyyəti qeyd edilib, redaksiya heyəti ilə yazışmalarda gözlənilən üslub qaydalarına toxunub, müəlliflərin qarşısına çıxan suallara aydınlıq gətirilib.

Seminarda çıxış edən BDU-nun rektoru Elçin Babayev BDU-nun elmi nəşrlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən danışıb. Bu baxımdan nəşr olunan jurnalların beynəlxalq tələblərə uyğunlaşdırılması və beynəlxalq nüfuzlu bazalarda təmsilçiliyinin təmin edilməsinin həlli zəruri olan məsələlərdən olduğunu vurğulayıb. Milli elmi jurnalların, tədqiqatçıların və qurumların elmi fəaliyyətinin obyektiv qiymətləndirilməsi, onların elmi məhsuldarlığının müqayisəli təhlili üçün jurnalların beynəlxalq elmi bazalarda təmsil olunması vacibliyini vurğulayan rektor məqalələrin keyfiyyətinin artırılması istiqamətində müvafiq tövsiyələrini bildirib.

Təqdimatın sonunda mövzu ətrafında müzakirələr aparılıb, məruzəçi tərəfindən seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Baş prokuror Kamran Əliyev BDU tələbələrini təltif edib

***Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluq orqanlarının yaradılmasının 103 illiyi və prokurorluq işçilərinin peşə bayramı münasibətilə tədbir keçirilib.*** Tədbirdə Baş Prokurorluğun Elm Tədris Mərkəzinin keçirdiyi "Hüquq viktorinası"nın qalibləri də mükafatlandırılıb. Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev viktorinanın qalibi - BDU-nun Hüquq fakültəsi komandasının üzvlərini təltif edib, qaliblərə kubok təqdim edilib.



Qeyd edək ki, 2021-ci il 15 sentyabr tarixində keçirilən "Hüquq viktorinası"nda BDU, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, ADA Universiteti və Milli Aviasiya Akademiyasının Hüquq fakültələrinin tələbələri iştirak ediblər. Viktorinada iştirakçılar Konstitusiya hüququ, Cinayət hüququ, Cinayət prosessual hüquq və ümumdünya görüşünü əhatə edən sualları cavablandırıblar.

"BDU Komandası"nın üzvləri - Hüquq fakültəsinin tələbələri Fidan Əkbərova, Lamiyə Zülfüqarlı, Ceyhun Xəlilov, Aysu İsmayılzadə və Tahir Vəliyev viktorinada birinci yerə layiq görülüblər.

# Jurnalistika fakültəsinin tələbələri üçün təlimlər

***Medianın İnkişafı Agentliyinin (MEDİA) təşəbbüsü ilə "Lazarus Training" təşkilatı tərəfindən jurnalistlər üçün təhlükəli bölgələrdə fəaliyyət, mina partlayışlarından xilas olma və ilkin tibbi yardım mövzuları üzrə təşkil olunan təlimlər davam edir. Təlimlərdə peşəkar jurnalistlərlə yanaşı, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin tələbələri də iştirak edirlər.***



2021-ci il 5-6 oktyabr tarixlərində BDU-da keçirilən təlimlərdə iştirakçılara həyat və sağlamlıq üçün təhlükəli xəsarət növləri, hərbi münaqişə zamanı şəxslərə dəyən xəsarət riskinin qiymətləndirilməsi və tibbi müdaxilənin edilməsi barədə məlumat verilib.

İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən media nümayəndələrinin təhlükəli hadisələrlə bağlı maarifləndirilməsi, onların tibbi və psixoloji hazırlıq səviyyəsinin artırılması məqsədi ilə təlimin təcrübi hissəsində mina partlayışı nəticəsində xəsarət almış şəxsə ilkin tibbi yardımın göstərilməsi ilə bağlı praktik vərdişlər nümayiş etdirilib.

# Mexanika-riyaziyyat fakültəsində elmi seminar

***Oktyabrın 16-da Mexanika-riyaziyyat fakültəsində keçirilən elmi seminarda fakültənin Riyazi analiz kafedrasının dosenti, fizika-riyaziyyat elmləri namizədi Vüqar Mehrabov "Bir ucunda elastik bərkidilmiş inersial yük olan Eyler-Bernulli çubuğunun əyilmə rəqslərinin məxsusi tezlik və harmonikərinin xassələri" mövzusunda məruzə ilə çıxış edib.***

Seminarda bir ucu bərkidilmiş, digər ucunda isə c1 və c2 möhkəmliyi olan yaylarla elastik bərkidilmiş inersial yük olan Eyler-Bernulli çubuğunun əyilmə rəqslərini təsvir edən sərhəd şərtlərinə spektral parametr daxil olan dördüncü tərtib adi diferensial tənliklər üçün spektral məsələ müzakirə edilib. Baxılan məsələnin köklü alt fəzalarının strukturu, məxsusi funksiyalarının və onların törəmələrinin osillyasiya xassələri, məxsusi ədədləri və məxsusi funksiyaları üçün dəqiqləşdirilmiş asimptotik düsturlar, məxsusi funksiyalarının altsistemlərinin bazislik xassələri və bu altsistemlər üzrə spektral ayrılışlarının müntəzəm yığılması haqqında məlumat verilib.



# BDU TGT Cəbrayıl rayonunun işğaldan azad olunması ilə bağlı tədbir keçirib

***Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Cəbrayıl rayonunun işğaldan azad olunması ilə bağlı onlayn tədbir keçirilib. Tədbirdə ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Filologiya fakültəsi TGT-nin layihələr üzrə meneceri Gülnar Hüseynova, fakültənin III kurs tələbəsi Lamiyə Hüseynova və "Kitab" klubunun təlimçisi Şəbnəm Haqverdi çıxış edərək xalqımızın müasir qəhrəmanlıq salnaməsinə çevrilmiş 44 günlük Vətən müharibəsində canlarından keçmiş şəhidlərimizin və igid qazilərimizin şərəfli döyüş yolundan, qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış BDU-nun 18 şəhid məzununun göstərdikləri şücaətdən söz açıblar.

Tədbir Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədr müavini Elnura Ağasəfzadənin Qarabağ regionunda və isgaldan azad edilmis Cəbrayıl rayonunda həyata keçirilən yenidənqurma işləri ilə bağlı həyata keçirilən layihələr və gənclərin bu istiqamətdəki rolundan bəhs edən çıxışı ilə yekunlaşıb.

# BDU-da "Məişət zorakılığı media müstəvisində" mövzusunda keçirilən təlimlər başa çatıb

***Oktyabrın 22-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Medianın İnkişafı Agentliyi, Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı və Avropa İttifaqının maliyyələşdirdiyi "Azərbaycanda məişət zorakılığı qurbanlarına dəstəyin gücləndirilməsi" adlı Tvinninq layihəsi çərçivəsində jurnalistlər üçün "Məişət zorakılığı media müstəvisində" mövzusunda təlimlər başa çatıb.***





Təlimlərin bağlanış mərasimində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini, benefisiar ölkə üzrə layihə rəhbəri Sədaqət Qəhrəmanova çıxış edərək bu təlimlərin media nümayəndələri üçün vacibliyini vurğulayıb. S.Qəhrəmanova bildirib ki, 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edilib, eyni zamanda ötən il "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" imzalanıb. Ölkəmizdə məişət zorakılığı ilə bağlı mövcud vəziyyət, məişət zorakılığına qarşı mübarizə sahəsində atılan addımlar barədə ətraflı məlumat verib.

BDU-nun rektoru Elçin Babayev belə vacib bir təlimin keçirilmə məkanı olaraq peşəkar jurnalist kadrlar hazırlayan BDU-nu seçdiklərinə görə təşkilatçılara təşəkkürünü bildirib. Qeyd edib ki, məişət zorakılığı problemi dünyanın bütün ölkələrində bu və ya digər formada mövcuddur. Onun qarşısının alınması ilə bağlı müəyyən tədbirlər var ki, onlardan istifadə etməklə müsbət nəticələr əldə etmək olar. Bununla bağlı ölkəmizdə də sistemli işlər görülür. Məişət zorakılığının qarşısının alınması insanların təhlükəsizliyinin təmin olunmasında böyük əhəmiyyət kəsb edir. Cəmiyyət bilməlidir ki, məişət zorakılığı vətəndaş cəmiyyətinin əsaslarına ciddi zərbə vurur.

Daha sonra təlim iştirakçılarına sertfikatlar təqdim edilib.

Qeyd edək ki, 19-22 oktyabr tarixlərində BDU-da keçirilən təlimlərdə iştirakçılara məişət zorakılığı ilə bağlı mövcud vəziyyət, bu məsələ ilə bağlı məlumatların yayılmasında jurnalistlərin rolu və gender zorakılığı anlayışı barədə informasiya verilib, fikir mübadiləsi aparılıb. Məişət zorakılığın yazılı formada işıqlandırılmasına dair təlimatlar verilib. İştirakçılar arasında müvafiq sahə üzrə qanunvericilik mövzusunda qrup işləri təşkil olunub. Təlimləri avstriyalı ekspertlər Manuela Hargassner-Delpos və Thomas Hainlen aparıb.

# Tələbə və məzunlar üçün "Peşəkar bank işçisi" mövzusunda təlim keçirilib

***Oktyabrın 22-də Bakı Dövlət Universiteti və Azərbaycan Beynəlxalq Bankı (ABB) arasında "Qoşa saat" layihəsi çərçivəsində növbəti təlim keçirilib. "Peşəkar bank işçisi" mövzusunda keçirilən təlim BDU-nun Karyera və məzunlarla əlaqə sektoru və ABB-nin birgə təşkilatçılığı ilə tələbə və məzunlar üçün təşkil olunub.***

Azərbaycan Beynəlxalq Bankının Hüquqi təhlil və korporativ işlər şöbəsinin müdiri Ülkər Məmmədova və Müqavilələr və bank əməliyyatlarına hüquqi dəstək şöbəsinin müdiri Cavid Muxtarov "Peşəkar bank işçisi" mövzusunda çıxış edərək təlim iştirakçılarına bank işində idarəetmənin üstünlükləri, o cümlədən şəffaflıq və hesabatlılıq, korporativ maliyyənin idarə olunması, bank işçisinin vəzifə və öhdəlikləri, bu istiqamətlərdə beynəlxalq təcrübə barədə məlumat veriblər.




Tələbələrin bankların fəaliyyətində hüquq strukturunun rolu və banklarda hüquq istiqamətində karyera inkişafı barədə sualları cavablandırılıb. Sonda Karyera və məzunlarla əlaqə sektorunun əməkdaşı İlkin Şərifov BDU-da tələbələr üçün daima yeni təlim və layihələr həyata keçirildiyini vurğulayıb, onları keçirilən seminar və treninqlərdə fəal iştirak etməyə çağırıb.

## "Sovet hüquq sistemi ilə müstəqil Azərbaycanın hüquq sisteminin fərqləri" mövzusunda seminar keçirilib

***Hüquq fakültəsində Tələbə Gənclər Təşkilatı (TGT) və "Socialist Law Club"un birgə təşkilatçılığı ilə "Sovet hüquq sistemi ilə müstəqil Azərbaycanın hüquq sisteminin fərqləri" mövzusunda seminar keçirilib.***

Seminarda hüquq elmlər doktoru, professor Xəyyam İsmayılov mövzu ilə bağlı məruzə ilə çıxış edib. O, hüquq sistemi anlayışı ilə bağlı tələbələrə ümumi məlumat verib, daha sonra "Azərbaycanda hüquq sisteminin tarixi", "Cümhuriyyət dövründə hüquq sistemi", "Sovet dövründə Azərbaycanda hüququn mövcudluğu", "Qanunvericilik sahəsində həyata keçirilən yeniliklər" və s. kimi mövzulara toxunub. Ölkəmizdə həyata keçirilən hüquqi islahatlar tarixi prizmadan nəzərdən keçirilib, müasir hüquq sisteminin keçdiyi inkişaf yolunun ilkin mərhələsində azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, müstəqil ədalət mühakiməsinin həyata keçirilməsinə yönəlmiş hüquqi islahatların konsepsiyası haqqında məlumat verilib.

Görüş tələbələrin mövzu ilə bağlı suallarının cavablandırılması ilə davam edib.

## Yunus Əmrə İnstitutunun rəhbəri ilə görüş keçirilib



***Oktyabrın 28-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Səlçuk Karakılıç ilə görüşüb.***

Elçin Babayev BDU-nun beynəlxalq əlaqələrindən, dünyanın aparıcı ölkələrinin ali məktəbləri, o cümlədən Türkiyə universitetləri ilə ikitərəfli əlaqələrindən danışıb. Rektor qardaş ölkələr arasında getdikcə daha da artan əməkdaşlığın bütün fəaliyyət sahələrində olduğu kimi, elm, təhsil sahəsində də yüksək səviyyədə olduğunu qeyd edib.

Səlçuk Karakılıç qəbula görə Elçin Babayevə təşəkkür edib, iki ölkə arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərinin elm, təhsil sahəsində əməkdaşlıqda da ön planda olduğunu bildirib.

Görüşdə BDU və Bakı Yunus Əmrə İnstitutu arasında əməkdaşlıq planları, ortaq layihələr müzakirə olunub, geniş fikir mübadiləsi aparılıb.

## Qazi Ziya Səlimovla görüş

***Oktyabrın 25-də Ekologiya və torpaqşünaslıq fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Vətən müharibəsi iştirakçısı Ziya Səlimovla görüş keçirilib. Tədbirdə çıxış edən TGT-nin fakültə üzrə sədr müavini, III kurs tələbəsi Murad İskəndərzadə Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə əbədi həkk olunan 44 günlük Vətən müharibəsində əldə etdiyimiz parlaq qələbədən bəhs edib.***

Sonra çıxış edən qazi Ziya Səlimov 44 Günlük Vətən müharibəsi dövründə göstərdiyi şücaətlərdən və şərəfli döyüş yolundan bəhs edərək, rəşadətli ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələrdən, xalqımızın göstərdiyi birlik və həmrəylik nümunəsindən bəhs edib. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusunun cəmi 44 gün içində düşmənin 30 il ərzində möhkəmləndirdiyi istehkamları, gücləndirilmiş müdafiə xəttini yarıb keçdiyinə diqqət çəkən Ziya Səlimov hərbçilərimizin sərgilədiyi peşəkarlığın dünyanın ən qabaqcıl dövlətlərini də heyrətləndirdiyini vurğulayıb. Z. Səlimov müharibə ilə bağlı xatirələrini danışıb, dövlətin qazilərə olan dəstəyindən bəhs edib.

Tədbir qazi Ziya Səlimovun tələbələri maraqlandıran sualları cavablandırması ilə başa çatıb.

# Mingəçevir Dövlət Universiteti və Bakı Dövlət Universiteti arasında birgə fəaliyyət planının icrasına start verilib

***Mingəçevir Dövlət Universiteti və Bakı Dövlət Universiteti arasında əməkdaşlıq çərçivəsində cari tədris ili üzrə qəbul edilmiş birgə fəaliyyət planının icrasına başlanılıb.***

Fəaliyyət planına əsasən, müxtəlif istiqamətlər üzrə BDU-nun təcrübəli professor və müəllim heyəti, tanınmış alimləri tərəfindən MDU-nun gənc əməkdaşları, tələbə və magistrantları üçün mühazirələrin oxunmasını nəzərdə tutan “Ustad dərsləri” adlı birgə layihənin açılış mərasimi keçirilib.

“Microsoft Teams” platforması üzərindən onlayn formatda təşkil edilən layihənin açılışında çıxış edən MDU-nun rektorunun müşaviri Hamiz Mahmudov iştirakçılara rektor Şahin Bayramovun salamlarını çatdırıb. Qeyd edilib ki, 2019-cu il sentyabrın 30-da Azərbaycan ali təhsilinin flaqmanı olan BDU və MDU arasında əməkdaşlıq protokolunun imzalanması ilə əsası qoyulan işbirliyi iki il ərzində uğurla davam etdirilib.

Bununla yanaşı, əməkdaşlıq çərçivəsində hər iki universitetin rektorları tərəfindən razılaşdırılan 2021/2022-ci tədris ili üçün çoxşaxəli birgə fəaliyyət planının əhəmiyyəti və məzmunu diqqətə çatdırılıb. Əsasən MDU-nun akademik potensialının gücləndirilməsinə töhfə verməyi hədəfləyən birgə tədbirlərin keçirilməsində əməyi olan hər iki universitetin rəhbərliyinə və əməkdaşlarına təşəkkür ifadə edilib.

Moderator Elm və innovasiyalar şöbəsinin müdiri Vüqar Mustafayev proqrama uyğun olaraq məruzəçi və mövzu haqqında ətraflı məlumat verdikdən sonra “Ustad dərsləri” layihəsi çərçivəsində ilk mühazirəyə start verilib.

Mühazirə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin “Əməliyyatlar tədqiqi və ehtimal nəzəriyyəsi” kafedrasının dosenti, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Qurban Qasımov tərəfindən keçirilib. “Ehtimal nəzəriyyəsinin tətbiqi məsələləri” mövzusunda keçirilən mühazirədə MDU-nun müvafiq ixtisaslar üzrə təhsil alan tələbə və magistrantları, gənc akademik heyət üzvləri iştirak ediblər.

Mühazirədə dosent Q.Qasımov “Maple 2020” riyazi paketi vasitəsilə multiprosessor sistemlərdə ehtimal nəzəriyyəsinə dair konkret məsələlərin həllini şərh edib, “birbaşa daxiletmə üsulu ilə nizamlama” alqoritmini araşdırıb, praktiki məsələlərdə mərkəzi limit, “bürünmə”, monoton funksiya ilə təyin olunan təsadüfi kəmiyyətin paylanma sıxlığı haqqında teoremlərdən bəhs edib və onların tətbiqindən danışıb.

MDU-nun tələbə və müəllim kollektivi üzvləri tərəfindən maraqla qarşılanan mühazirənin mövzusu ətrafında geniş fikir mübadiləsi aparılıb və təqdim edilən suallar cavablandırılıb. BDU-nun təcrübəli pedaqoq-alimi Q.Qasımova və əməkdaşlığın inkişafına dəstəyi olan hər kəsə təşəkkürünü bildirən mühazirə iştirakçıları layihənin icrasından məmnunluqlarını ifadə ediblər.

Sonda çıxış edən MDU-nun Pedaqoji fakültəsinin dekanı Nizami Zeynalov, Elm və innovasiyalar şöbəsinin müdiri Vüqar Mustafayev və BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin elmi işlər üzrə dekan müavini Aytəkin Əfəndiyeva dost universitetlər arasında bu təşəbbüsü yüksək qiymətləndirərək, layihənin yüksəkixtisaslı kadr hazırlığının keyfiyyətinin yüksəlməsi işinə töhfə verəcəyinə əminliklərini bildirib və bu cür fəaliyyətlərin davamlı olmasını arzulayıblar.

İki ay müddətində 10 müxtəlif mövzuda ustad dərslərinin təşkil ediləcəyi layihə çərçivəsində növbəti mühazirə oktyabrın 5-də BDU-nun Fizika fakültəsinin “Optika və molekulyar fizika” kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru Niftalı Qocayev tərəfindən “Dispersiyanın elektron nəzəriyyəsi” mövzusunda keçiriləcək.

Qeyd edək ki, modernləşmə yolunda sürətlə irəliləyən MDU-da ali təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və akademik potensialın gücləndirilməsi məqsədilə ölkəmizin flaqman və ən qocaman ali təhsil müəssisəsi olan BDU ilə əməkdaşlığa xüsusi önəm verilir. Bu işbirliyi çərçivəsində son iki il ərzində tələbə mübadiləsi, beynəlxalq layihələrdə birgə iştirak həyata keçirilib, MDU-nun tələbə və müəllim kollektivi üzvlərinin BDU-da təşkil olunan müxtəlif formatlı tədbirlərə qoşulmaq imkanları təmin edilib.

Sözügedən əməkdaşlığın intensivliyinin artırılması məqsədilə hər iki universitet tərəfindən cari tədris ilində reallaşdırılması nəzərdə tutulan çoxşaxəli birgə fəaliyyət planı qəbul olunub. Tələbə və magistrantların, akademik və inzibati heyət üzvlərinin hərtərəfli inkişafına töhfə verməyi hədəfləyən bu fəaliyyət planı ustad dərsləri, konfranslar, elmi seminarlar, təlimlər, təcrübə mübadiləsi və müxtəlif məzmunlu tələbəyönümlü tədbirləri özündə ehtiva edir.

# BDU ilə MDU-nun birgə təşkilatçılığı ilə dəyirmi masa keçirilib

***Oktyabrın 20-də Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universiteti arasında əməkdaşlıq çərçivəsində cari tədris ili üzrə qəbul edilmiş birgə fəaliyyət planına əsasən “Fizika müəllimliyi” ixtisası üzrə kadr hazırlığının təşkili” mövzusunda dəyirmi masa keçirilib.***




“Microsoft Teams” platforması üzərindən onlayn formatda təşkil edilən dəyirmi masada BDU-nun Fizika fakültəsinin və MDU-nun Pedaqoji fakültəsinin müvafiq inzibati və akademik heyət üzvləri iştirak ediblər.

Dəyirmi masaya moderatorluq edən MDU rektorunun müşaviri Hamiz Mahmudov universitetlər arasında əməkdaşlığın uğurla davam etdiyini vurğulayıb, göstərilən diqqətə və dəstəyə görə hər iki ali təhsil müəssisəsinin rəhbərliyinə təşəkkür edib.

Bildirilib ki, əmək bazarının tələblərini nəzərə alaraq MDU-da yaxın gələcəkdə yeni ixtisaslar, o cümlədən “Fizika müəllimliyi” ixtisası üzrə kadr hazırlığının həyata keçirilməsi planlaşdırılıb və bu sahədə zəngin ənənələrə malik BDU-nun təcrübəsinin öyrənilməsi dəyirmi masanın əsas məqsədini təşkil edir.

Yeni texnologiyaların davamlı inkişafı və tətbiqi şəraitində orta məktəblərdə təbiət və texniki yönümlü fənlərin tədrisi ilə məşğul olan və müasir tələblərə cavab verən müəllim kadrlarının yetişdirilməsinə ehtiyacın artdığını deyən BDU-nun Fizika fakültəsinin dekan müavini V.Məmmədov MDU-nun bu təşəbbüsünü yüksək qiymətləndirib və bununla bağlı əməkdaşlığa daim açıq olduqlarını bildirib.

Geniş təqdimatla çıxış edərək təmsil etdiyi universitetin təcrübəsini bölüşən V.Məmmədov BDU-nun Fizika fakültəsinin yaranması, strukturu və idarə edilməsi, ali təhsil proqramları, elmi istiqamətləri, tədris və elmi metodiki bazası və nailiyyətləri haqqında ətraflı məlumat verib.

“Fizika müəllimliyi” ixtisası üzrə tədris standartı və tədris planından bəhs edən V.Məmmədov bakalavriat səviyyəsində sözügedən ali təhsil proqramı üzrə keyfiyyətli təhsil xidmətlərinin göstərilməsinin vacib şərtlərini və bölgələrdə texniki elmlərin təbliğinin önəmini diqqətə çatdırıb.

BDU-nun Fiziki elektronika kafedrasının müdiri Əhməd Abdinov, Ümumi fizika və fizikanın tədrisi metodikası kafedrasının dosenti Rəhim Rəhimov fizika elminin tədrisi ilə yanaşı, tələbələrə müəllimlik keyfiyyətlərinin də aşılanmasını özündə ehtiva edən bu ali təhsil proqramının effektiv təşkil olunması üçün tövsiyələrini bildirib, pedaqoji profilli universitetlər və ümumi təhsil müəssisələri ilə əməkdaşlığın, eləcə də müasir laboratoriyaların yaradılmasının önəmini diqqətə çatdırıb.

Sonra müzakirələrlə davam edən dəyirmi masada MDU-da “Fizika müəllimliyi” ixtisası üzrə kadr hazırlığının potensialının formalaşdırılması və onun inkişaf etdirilməsi istiqamətində geniş fikir mübadiləsi aparılıb, çoxsaylı suallar ətraflı cavablandırılıb.

Qeyd edək ki, MDU-da ali təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və akademik potensialın gücləndirilməsi məqsədilə ölkəmizin qabaqcıl və ən qocaman ali təhsil müəssisəsi olan BDU ilə əməkdaşlığa xüsusi önəm verilir. Sözügedən əməkdaşlığın intensivliyinin və nəticəyönümlüyünün daha da artırılması məqsədilə hər iki universitet tərəfindən cari tədris ilində reallaşdırılması nəzərdə tutulan çoxşaxəli birgə fəaliyyət planı qəbul edilib. Tələbə və magistrantların, akademik və inzibati heyət üzvlərinin hərtərəfli inkişafına töhfə verməyi hədəfləyən bu fəaliyyət planı ustad dərsləri, konfranslar, elmi seminarlar, təlimlər, təcrübə mübadiləsi və müxtəlif məzmunlu tələbəyönümlü tədbirləri özündə ehtiva edir.

# “Nizami irsi - insanlığın mənəvi sərvət axtarışının zirvəsində”

***Oktyabrın 22-də Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universiteti arasında əməkdaşlıq çərçivəsində cari tədris ili üzrə qəbul edilmiş birgə fəaliyyət planına əsasən hər iki ali təhsil müəssisəsinin Tələbə Gənclər Təşkilatlarının (TGT) təşkilatçılığı ilə “Nizami irsi - insanlığın mənəvi sərvət axtarışının zirvəsində” mövzusunda dəyirmi masa keçirilib.***

“Microsoft Teams” platforması üzərindən təşkil edilən dəyirmi masada BDU-nun Filologiya, Şərqşünaslıq fakültələrinin və MDU-nun Humanitar fənlər və Pedaqoji fakültəsinin müəllim və tələbələri iştirak ediblər.

Dəyirmi masaya moderatorluq edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov ölkə Prezidenti tərəfindən 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsini azərbaycançılığa, onun tarixinə və mədəniyyətinə olan ehtiramın təzahürü olduğunu qeyd edib. Bildirib ki, milli-mənəvi dəyərlərə hörmət Ulu öndər Heydər Əliyevin apardığı siyasətin mühüm tərkib hissələrindən idi. Məhz Ümummilli lider hakimiyyətdə olduğu dövrdə Azərbaycan mədəniyyətinə, milli-mənəvi dəyərlərə hər zaman xüsusi diqqət yetirilib və bu siyasətin məntiqi davamıdır ki, bu gün ölkə üzrə mütəfəkkir şairimizin irsini təbliğ edən silsilə tədbirlər keçirilir. BDU-da təşkil olunan dahi şairin xatirəsinə həsr olunmuş silsilə tədbirlər Nizaminin zəngin irsinin araşdırılmasına və gənclər arasında geniş təbliğinə töhfədir.

Sonra dəyirmi masada məruzə ilə çıxış edənlər BDU-nun Filologiya fakültəsinin professoru Mətanət Abdullayeva, Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli, MDU-nun Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova, Humanitar fənlər kafedrasının müəllimləri - Ayna Babazadə, Səadət Ağakişiyeva, tələbələr - Ələkbər Həsənov, Xədicə Cəfərli Nizami yaradıcılığında əxlaqi dəyərlər, dahi mütəfəkkirin əsərlərində hökmdar və xalq problemi, sosial ədalət və ideal cəmiyyət prinsipləri və s. mövzularda məruzələrlə çıxış ediblər. Çıxışlarda həmçinin Nizami irsinin tədqiqi və təşviqi istiqamətində beynəlxalq müstəvidə həyata keçirlən layihələrdən söz açılıb, böyük şairin 880 illiyinin həm ölkəmizdə, həm də ölkə xaricində təntənəli şəkildə qeyd olunduğu vurğulanıb.

Dəyirmi masa tələbələrin suallarının cavablandırılması ilə başa çatıb.

# MİQ imtahanlarında BDU-nun 1133 məzunu müəllim adını qazanıb

***2021/2022 tədris ili üzrə keçirilmiş Müəllimlərin İşə Qəbulu müsabiqəsinin nəticəsinə əsasən, 2021-ci ildə Bakı Dövlət Universitetini pedaqoji ixtisaslar üzrə bitirən 1133 məzun məktəblərdə müəllim vəzifəsinə işə qəbul olunub.***

Müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak etmiş BDU-nun və Qazax filialının biologiya, biologiya müəllimliyi, biokimya, fizika, fizika müəllimliyi, kimya, kimya müəllimliyi, neft kimyası, coğrafiya, coğrafiya müəllimliyi, tarix, tarix müəllimliyi, Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan dili və ədəbiyyat müəllimliyi, alman dili müəllimliyi, fransız dili müəllimliyi, rus dili və ədəbiyyatı, fars dili və ədəbiyyatı, filologiya, ədəbiyyatşünaslıq (ədəbi tənqidin nəzəriyyəsi və tarixi), riyaziyyat, riyaziyyat müəllimliyi, informatika müəllimliyi, informatika, tətbiqi riyaziyyat, kompüter elmləri, mexanika-riyaziyyat, ibtidai sinif müəllimliyi ixtisaslarından olan məzunlarının nəticələri yüksəkdir.

Məzunlarımızı təbrik edir, onlara pedaqoji fəaliyyətlərində uğurlar arzu edirik!

## Kitabxanaçılıq-informasiya fakültəsi əməkdaşlarının yeni monoqrafiyası nəşr olunub

***Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dosent Nadir İsmayılov və fakültənin elmi işlər üzrə dekan müavini, dosent Zahidə Rzayevanın yeni monoqrafiyası nəşr olunub.***

Monoqrafiyada Azərbaycanda kitabxanaçılıq-biblioqrafiya sahəsinə dair sənəd axını təhlil edilib, müvafiq ümumiləşdirmələr aparılıb. Tədqiqatda ilk dəfə olaraq kitabxanaçılıq və biblioqrafiya üzrə fəaliyyətə sənədşünaslıq – sənəd axını müstəvisində baxılmış, sahə üzrə sənəd axınının inkişaf mərhələləri, inkişaf meyilləri, müvafiq sahələr üzrə sənəd şleyfi öyrənilmiş, elmi mühitin formalaşması və bu prosesdə ayrı-ayrı görkəmli şəxslərin və müəssisələrin rolu müəyyən edilmişdir.

Eyni zamanda, monoqrafiyada müasir dövrdə kitabxanaçılıq və biblioqrafiya, habelə, kitabşünaslıq sahəsində sənəd axınının strukturu bibliometrik təhlilə cəlb edilmişdir. Əsər sahə mütəxəssisləri və geniş informasiya tələbatçıları üçün nəzərdə tutulmuşdur.

# BDU alimlərinin məqalələri nüfuzlu jurnallarda dərc edilib

Bakı Dövlət Universitetinin Tədqiqat, inkişaf və innovasiyalar üzrə mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar ETL-in aparıcı elmi işçiləri İmaməddin Əmiraslanov və Zakir Cahangirlinin həmmüəllifi olduqları "InSe-GaSe sisteminin yeni indium qallium selenidlərinin sintezi və xarakteristikası" ("Synthesis and characterization of new indium gallium selenides of the InSe-GaSe system") adlı məqalə "Web of Science" və "SCOPUS" bazalarında indekslənən "Journal of Solid State Chemistry" (İF: 3.498) (v. 304, 2021) jurnalında çapa qəbul edilib.

***

Bakı Dövlət Universitetinin "Zərif üzvi sintez" elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi, dosent Əli Xəlilovun müəllifi olduğu elmi məqalə "Web of Science Clarivate Analytics" elmmetrik beynəlxalq bazasına daxil olan yüksək impakt faktorlu jurnalda dərc olunub.

Məqalədə müəllif tərəfindən sintez edilmiş aminspirtlərin Türkiyədən olan tədqiqatçılarla elmi əməkdaşlıq çərçivəsində spektroskopik (NMR, UV-Vis, İQ) metodlarla nəzəri və experimental tədqiqi aparılıb, onların SH-SY5Y və L-929 şiş hüceyrələrinə qarşı sitotoksik təsiri öyrənilib. Daha sonra bu birləşmələrin asetilxolinesteraza və qlükozidaza enzimlərinə qarşı ingibə xassələri araşdırılıb və bu istiqamətdə molekulyar doking hesablamalar aparılıb.

***

Bakı Dövlət Universitetinin nəzdində Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun Biofizika şöbəsinin baş elmi işçisi, professor Niftalı Qocayevin, aparıcı elmi işçiləri - dosent Gülşən Ağayeva və Ülkər Ağayevanın "Düyü kəpəyi zülalından alınmış kationik Glu-Gln-Arg-Pro-Arg pentapeptidin və onun D-izomerlərlə əvəzolunmuş analoqlarının molekulyar docking simulyasiya vasitəsilə xərçəng və covid-19 əleyhinə xüsusiyyətlərinin qiymətləndirilməsi" (Evaluation of anti-cancer and anti-covid-19 properties of cationic pentapeptide Glu-Gln-Arg-Pro-Arg, from rice bran protein and its D-isomer analogs through molecular docking simulations) adlı məqaləsi Q2 kvartil kateqoriyalı jurnallar siyahısında yer alan, "Journal of Molecular Graphics and Modelling" jurnalında (Journal of Molecular Graphics and Modelling, v.108, 2021) dərc edilib.

***

Dünya iki ilə yaxındır ki, COVID -19 virusunun yüksək ölümlə nəticələnən fəsadlarından əziyyət çəkir. Virusun yayılmasını minimuma endirmək üçün təklif olunan profilaktik tədbirlərlə yanaşı, xəstəliyin qarşısını almaq üçün müxtəlif vaksinlərin hazırlanması istiqamətində çoxtərəfli səylər göstərilir. Hazırda bir neçə vaksinin hazırlanması başa çatmış, onların təhlükəsizliyi və səmərəliliyi ilkin olaraq göstərilmişdir. Moderna, NIAID, BioNTech və Pfizer vaksinlərinin kliniki sınaqları, onların yüksək təhlükəsizliyini və səmərəliliyini müəyyən etmişdir. Məqalədə mövcud COVID -19 vaksinlərinin quruluşu, mexanizmləri və səmərəliliyi müqayisəli şəkildə analiz edilmişdir.

## Kitabxanaçılıq-informasiya fakültəsində əcnəbi doktorantın elmi seminarı keçirilib

***Oktyabrın 29-da Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə fakültənin əcnəbi doktorantı, Əlcəzair Xalq Demokratik Respublikasının vətəndaşı Lemounes Nour El Houda Djoumananın elmi seminarı keçirilib.***



Elmi seminarı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov bildirib ki, hazırda Universitetin beynəlxalq əlaqələri daha da genişlənir, əcnəbi müəllim və tələbələr Universitetdə elmi-tədqiqat işlərinin məzmununun yenilənməsinə öz töhfələrini verirlər. O, bugünkü seminarın mövzusunun xüsusi aktuallıq kəsb etdiyini vurğulayaraq bildirib ki, məruzəçi Lemounes Nour El Houda Djoumana Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi" haqqında 2018-ci il 10 yanvar tarixli Sərəncamına uyğun olaraq BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinə qəbul olunub.

Elmi seminarda "Azərbaycan kitabxanaları: tarixdən bu günə" mövzusunda məruzə ilə çıxış edən doktorant Lemounes Nour El Houda Djoumana məruzəsini əsasən ingilisdilli mənbələr əsasında hazırladığını diqqətə çatdırıb. Məruzədə Azərbaycanda kitabxanaçılıq sənətinin tarixi, ilk kitabxanalar, məscid, mədrəsə və saray kitabxanaları barədə məlumatlar verilib. Tədqiqatda Bəhmənyar kitabxanası, Xətib Təbrizinin kitabxanası, Rəşidiyyə kitabxanası, Nəsirəddin Tusi tərəfindən təşkil edilən zəngin kitabxana barədə də müfəssəl məlumatlar yer alıb. Orta əsrlərdən başlayaraq kitabxanaların sayının artdığını bildirən tədqiqatçı Şirvanşahlar, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər dövlətlərinin saray kitabxanalarından da bəhs edib. Tədqiqatçı XX əsrdə Azərbaycanda kitabxana işinin inkişaf etdiyini, bu sahə üzrə kadr hazırlığında Bakı Dövlət Universitetinin rolunu xüsusi vurğulayıb.

Müstəqilliyin bərpasından sonra Azərbaycanda kitabxana işinin dövlətin xüsusi himayəsində olduğunu bildirən əcnəbi doktorant qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev kitabxanaları müqəddəs yer, mənəviyyat, bilik, zəka mənbəyi adlandırıb.

Məruzədə 30 il ərzində erməni işğalında qalan Qarabağda talan edilmiş kitabxanalardan da bəhs edilib. Qeyd olunub ki, həmin ərazilərdə ümumilikdə 4.6 milyon kitab fonduna malik 927 kitabxana yandırılıb. Azad edilmiş ərazilərə - Füzuli və Cəbrayıl rayonlarına, tarixi Xudafərin körpüsünün ərazisinə səfər etdiyini diqqətə çatdıran əcnəbi doktorant qeyd edib ki, o erməni vandalizminin ağır nəticələrini öz gözləri ilə görüb. Eyni zamanda Qarabağda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan böyük quruculuq işlərinin şahidi olduğunu vurğulayan tədqiqatçı əmin olduğunu bildirib ki, ən yaxın zamanda həmin ərazilərdə talan edilmiş kitabxanalar da bərpa olunacaqdır.

Əcnəbi doktorantın məruzəsi böyük maraqla dinlənilib. Məruzəçiyə çoxsaylı suallar ünvanlanıb, məruzə ətrafında geniş müzakirələr aparılıb. Professorlar Mais Süleymanov, Xəlil İsmayılov, dekan müavini Zahidə Rzayeva, kafedra müdirləri Elçin Əhmədov, Knyaz Aslan, Nadir İsmayılov, dosentlər Pərviz Kazimi, Rəşad Qardaşov və başqaları mövzu ilə bağlı fikirlərini bildiriblər.

## "Çin ənənəvi poeziyası" mövzusunda ustad dərsi keçirilmişdir

***Oktyabrın 29-da Şərqşünaslıq fakültəsi, BDU-nun nəzdində Konfutsi İnstitutu, Beynəlxalq əlaqələr şöbəsi və Anhui Universitetinin təşkilatçılığı ilə tələbələr və gənc tədqiqatçılar üçün "Çin ənənəvi poeziyası" mövzusunda onlayn ustad dərsi keçirilmişdir.***

Tədbirin məruzəçisi Anhui Universitetinin professoru Denq Şu artıq üç minillikdən çox zaman ərzində tanınan klassik Çin poeziyasının bütün ənənəvi formalarının əsasən qafiyəli olmasından danışmışdır. Konfutsi kitablarının imperator Şi Xuandinin göstərişi ilə yandırıldığı vaxtdan "Şitszin" (Nəğmələr Kitabı) və "Çutsi" (Çu çarlığının nəğmələri) adlı şeir toplularının bu günümüzə qədər gəlib çatan ən erkən antologiyalar hesab olunduğunu vurğulamış, həm qəsidələri, həm də xalq mahnılarını özündə ehtiva edən Çin şeirləri toplusu və "Çutsi" adlı topludan bəhs etmişdir."Şi" formasında yazılmış şeirlərin Tan sülaləsindən başlayaraq müasir dövrə qədər Çin poeziyasına üstünlük təşkil etdiyi haqqında danışmışdır. Çinin ən böyük klassik poeziyanın şairlərindən olan Li Bo, Du Fu, Bo Tszüy-i, Ouyan Sü, Su Şi, Van An-şinin əsərləri barəsində də qısa məlumat vermişdir.

Tədbirdə fakültənin professor-müəllim heyəti, doktorant və tələbələri iştirak etmişdir.

# BDU THİK Vətən müharibəsində Zəfərə həsr olunan fləşmob keçirib

***Oktyabrın 29-da Bakı Dövlət Universitetinin Tələbə Həmkarları İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə 44 Günlük Vətən Müharibəsində Zəfərə həsr olunan silsilə tədbirlərə start verilib. İlk olaraq BDU THİK üzvlərinin iştirakı ilə, Vətən müharibəsindəki şanlı Qələbənin ildönümünə həsr olunan fləşmob həyata keçirilib. Fləşmobda simvolik 44 rəqəmi və "Qarabağ Azərbaycandır!" şüarı təsvir olunub.***

Qeyd edək ki, fləşmob BDU THİK-in hazırladığı "44 Günlük Zəfər tarixi" adlı videoçarxın tərkib hissəsi olacaq.






# BDU tələbələri azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsi layihəsində iştirak edəcəklər

***Bakı Dövlət Universitetinin tələbələri Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə “Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsi” layihəsində iştirak edəcəklər. Gənclər işğaldan azad olunan ərazilərin real ekoloji vəziyyəti ilə tanış olacaq, müxtəlif vasitələrlə yerli və beynəlxalq ictimaiyyəti törədilən ekosid faktlarına dair məlumatlandıracaqlar.***

Layihə çərçivəsində Ermənistanın 30 illik işğalı nəticəsində təbiətimizə vurulan ziyan araşdırılacaq, ərazilərin bərpası üçün beynəlxalq təcrübə öyrəniləcək və ekoloji ziyanın miqyasının ölçülməsi üçün metodologiya və qaydalar hazırlanacaqdır.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondu tərəfindən həyata keçirilən bu layihə nəticəsində, gənclərin iştirakı ilə işğaldan azad olunmuş ərazilərin ekoloji durumunun qiymətləndirilməsi aparılacaq.

Qeyd edək ki, layihədə BDU-nun Coğrafiya, Ekologiya və torpaqşünaslıq fakültələrinin tələbələri də iştirak hüququ qazanıb.

# Filologiya fakültəsində “Dədə Qorqud dünyası” elmi-nəzəri jurnalının təqdimatı keçirilib

***Oktyabrın 6-da Filologiya fakültəsində “Dədə-Qorqud” elmi tədqiqat laboratoriyası tərəfindən nəşr olunan “Dədə Qorqud dünyası” elmi-nəzəri jurnalının təqdimatı keçirilib. Təqdimatda laboratoriya əməkdaşları və AMEA-nın Elm Tarixi İnstitutunun şöbə müdiri Bayram Quliyev iştirak ediblər.***



Tədbiri giriş sözü ilə açan “Dədə-Qorqud” elmi tədqiqat laboratoriyasının müdiri Almara Nəbiyeva sözügedən toplunun üçüncü nəşr olduğunu diqqətə çatdıraraq vurğulayıb ki, jurnalın sonuncu – ikinci nəşri 2012-ci ildə mərhum professor Qara Namazovun rəhbərliyi ilə çap olunub. Budəfəki nəşrdə “Kitabi-Dədə Qorqud” dastanının elmi-nəzəri əsaslarını özündə ehtiva edən on üç elmi məqalə dərc olunub. Həmçinin qeyd olunub ki, məcmuədə “Kitabi-Dədə Qorqud” dastanının üçüncü əlyazması ilə bağlı məqalələr də yer alıb. Bununla yanaşı, professor Ramiz Əskərin “Kitabi-Dədə Qorqud”un üçüncü əlyazması” adlı kitabının da annotasiyası jurnalda öz əksini tapıb.

Professor Adil Babayev “Dədə Qorqud dünyası” elmi-nəzəri jurnalının yeni nəşrini yüksək qiymətləndirərək redaksiya heyətinə uğurlar arzulayıb, gələcək nəşrlərin mövzu baxımından daha da zəngin və əhatəli olacağına əminliyini ifadə edib.

AMEA-nın Elm Tarixi İnstitutunun şöbə müdiri Bayram Quliyev uzun müddətdən sonra jurnalın üçüncü sayının işıq üzü görməsini qorqudşünaslığa yeni töhfə kimi dəyərləndirib, toplunun türk dünyasında tanıdılması işinə köməklik göstərəcəyini bildirib.

Sonda laboratoriya əməkdaşları jurnalın gələcək buraxılışlarının nəşri ilə bağlı müzakirələr aparıb, müvafiq qərarlar qəbul ediblər.

# Freymlər və Riss bazislərinə həsr olunmuş elmi seminar keçirilib

***Oktyabrın 27-də Mexanika-riyaziyyat fakültəsinin Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının dosenti Miqdad İmdad oğlu İsmayılov “Separabel olmayan Banax fəzalarında freymlər və Riss bazisləri haqqında” mövzusunda məruzə ilə çıxış edib.***

Məruzədə separabel Hilbert fəzalarında Bessel, Hilbert ardıcıllıqlarının, freymlərin və Riss bazislərin separabel olmayan Banax fəzalarında skalyar sistemlərin Banax fəzalarına nəzərən ümumiləşmələri haqqında məlumat verilib. Seminarda separabel olmayan Banax fəzalarında separabel olmayan skalyar sistemlərin Banax fəzasına nəzərən qeyri hesabi -Bessel, -Hilbert sistemləri, -freymlər və -Riss bazisləri anlayışları, anlayışların xarakteristikaları və onlar arasındakı əlaqələri müəyyənləşdirən teoremlər barədə fikir mübadiləsi aparılıb.

# BDU-nun bir qrup kollektivi şəhid Manaf Bəhmənlinin ailəsini ziyarət edib



Oktyabrın 29-da Bakı Dövlət Universiteti və YAP Yasamal Rayon Təşkilatının bir qrup kollektivi BDU-nun Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Mexanika-riyaziyyat fakültəsinin məzunu Manaf Bəhmənlinin ailəsi və məzarını ziyarət ediblər. Ziyarətdə Mexanika-riyaziyyat fakültəsinin dekan müavini Etibar Əhmədov, YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev, BDU Geologiya fakültəsinin dekan müavini, YAP Gənclər Birliyi İdarə heyətinin üzvü İlqar Quliyev, BDU Tələbə Gənclər Təşkilatının sədri Nicat İsmayılov, Mexanika-riyaziyyat fakültəsinin müəllim və tələbələri iştirak ediblər. Çıxış edənlər Manaf Bəhmənlinin Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. BDU-da təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Manafın həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı qeyd olunub.

Şəhidin valideynləri diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib və məhz dövlətimizin başçısının apardığı uğurlu siyasət nəticəsində torpaqlarımızın düşmən tapdağından azad edildiyini qeyd ediblər. Vətən torpağı uğrunda rəşadətlə döyüşərək şəhid olan əsgər valideynləri kimi fəxr etdiklərini vurğulayıblar.

Qeyd edək ki, Manaf Bəhmənli Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb, Prezidentin müvafiq Sərəncamı ilə “Vətən uğrunda” medalı ilə təltif olunub.

# BDU könüllülərinə təşəkkürnamələr təqdim olunub

***Bakı Dövlət Universitetində fəaliyyət göstərən “BDU Könüllüləri”nə Universitetin ictimai həyatında fəal iştiraklarına, müxtəlif şöbə və strukturlarda səmərəli fəaliyyətlərinə görə təşəkkürnamələr təqdim edilib.***

“BDU Könüllüləri“nin sıralarında bakalavr və magistratura səviyyələrində təhsili alan tələbələr ötən ildən başlayaraq fakültələrdə, kafedralarda, şöbələrdə və digər strukturlarda könüllü kimi uğurla fəaliyyət göstərir, Universitetin ictimai həyatında yaxından iştirak edirlər.

Qeyd edək ki, "BDU könüllüləri" qrupu 2020-ci ildə yaradılıb. Az bir müddətdə qrup öz sıralarında 500-dən artıq fəal tələbəni birləşdirib. Hazırda 45 nəfər tələbə Universitetin struktur bölmələrinin və fakültələrin fəaliyyətinə könüllü kimi cəlb olunub.

Könüllüləri təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq!

# Şərqşünaslıq fakültəsinin tələbələri Hərbi Qənimətlər Parkında olublar

*Şərqşünaslıq fakültəsinin bir qrup tələbəsi Cəbrayılın azad olunması günü münasibətilə Hərbi Qənimətlər Parkını ziyarət ediblər. Tələbələr Azərbaycan ordusunun əks-hücum əməliyyatları nəticəsində düşmənin döyüş meydanında qoyub qaçdığı hərbi texnika ilə yerində tanış olublar.*




Qeyd edək ki, BDU-da Vətən müharibəsinin birinci ildönümü ilə əlaqədar olaraq tələbə gənclərin Hərbi Qənimətlər Parkını ziyarəti təşkil olunur. Hərbi Qənimətlər parkına mütəmadi olaraq səfərlərin təşkil olunması tələbə gənclərin vətənpərvərlik hisslərinin gücləndirilməsinə, onların şanlı ordumuzun əldə etdiyi parlaq qələbənin möhtəşəmliyini hiss etməsinə xidmət edir. Səfərin məqsədi tələbələri Vətən müharibəsi ərzində Azərbaycanın müzəffər ordusunun apardığı döyüşlər, hərbi əməliyyatların gedişatı və möhtəşəm Zəfərimizin nəticələri ilə tanış etməkdir.

# "Erasmus+" mübadilə proqramında iştirak edən tələbəmiz öz təəssüratlarını bölüşür

**Bakı Dövlət Universitetinin bir çox tələbəsi dünyanın nüfuzlu universitetləri ilə ikili diplom, mübadilə proqramları və əməkdaşlıq müqaviləsi çərçivəsində təhsillərini xaricdə davam etdirir, təhsildə yeni uğurlar əldə edirlər. Tələbələr proqram çərçivəsində təhsil aldıqları universitet barədə fikirlərini bölüşürlər.**

*Budəfəki müsahibimiz BDU-nun Tarix fakültəsinin tarix müəllimliyi ixtisasının 4-cü kurs tələbəsi Sara Şükürovadır.*

*- "Erasmus+" mubadilə proqramına necə qoşuldunuz? İlkin mərhələdə Sivas Cümhuriyyət Universiteti ilə bağlı maraqlı məqamlar nələr idi?*

- Universitetdə təhsil aldığım ilk illərdən etibarən "Erasmus+" mübadilə proqramı ilə maraqlanırdım və müraciət etməyi düşünürdüm. Buna görə də universitetin rəsmi səhifəsini, sosial media hesablarını izləyirdim. Pandemiya dövründə "Erasmus+" mübadilə proqramı haqqında ətraflı məlumat əldə etdim. Öncə müraciət etməkdə tərəddüd edirdim, çünki pandemiya idi və düşünürdüm ki, dərslər onlayn şəkildə həyata keçiriləcək, amma gözləntimin əksinə oldu. Müraciətimə baxıldıqdan sonra müsahibə mərhələsinə dəvət olundum və müsbət nəticə aldığımla bağlı geri dönüş edildi. Onu da qeyd etmək istəyirəm ki, bu prosesdə iştirak edən bütün Universitet əməkdaşlarının hər biri məsələyə diqqət və qayğı ilə yanaşdılar.

*- Sivas Universitetində təcrübə proqramı necə təşkil olunub? Bu müddətdə hansı təcrübələr əldə etdiniz?*

- Mən, 75 günlük təcrübə proqramında iştirak haqqı qazanmışdım



və Sivas Cümhuriyyət Universitetində Türk Dünyası Arşdırma Mərkəzində maraq dairəmdə olan mövzuyla bağlı araşdırma apardım. Bu müddət ərzində də universitetlə və oradakı təhsillə yaxından tanış oldum. Professor-müəllim heyətinin hər biri bu işdə köməklik göstərməyə çalışırdılar. Universitetdə tələbə-müəllim münasibəti çox yüksək səviyyədədir. Universitetin əsas tədris prinsipi təhsilin praktik əsaslarla aparılmasıdır. Dərslər mühazirə yönümlüdür, seminarlar olmur və sonda tələbə imtahanlarla qiymətləndirilir.

*-Türkiyədə azərbaycanlı tələbə olduğunuzu biləndə necə münasibət göstərirdilər?*

- Ümumilikdə deyə bilərəm ki, türklər çox yardımsevər, qonaqpərvər və gülərüz millətdir. Ölkədəki turistlərə çox nəzakətli davranırlar. Azərbaycanlı olduğumu biləndə isə daha çox sevinirdilər və doğma bir insan kimi davranırdılar. Dostlarımın bir çoxu Azərbaycanı çox sevdiyini və bir gün ölkəmizə mütləq gəlmək istədiklərini bildirirdi.

*- "Erasmus" mubadilə proqramı yeni insanlar tanımaq və yeni dunya kəşf etmək üçün əvəzolunmaz imkandır. Bu imkanı necə dəyərləndirdiniz?*

- Həqiqətən də, mübadilə proqramı dünyanı, özünü, istəklərini və s. kəşf etmək üçün çox böyük fürsətdir. Türkiyədə olduğum müddət ərzində bir neçə şəhərini görmə imkanım oldu. Hər şəhərə getdikcə fərqli insanlara, mədəniyyətə qarşırsan və bu da insanın dünyagörüşünü artırır. Türkiyənin qədim və zəngin tarixi ilə tanışlıq şansım oldu. Möhtəşəm abidələr, muzeylər, böyük şəhərlər insanı valeh edir. Bu proqram sayəsində neçə gözəl dost qazandım, hazırda münasibətimiz davam edir. Mənə görə, hər bir tələbə ən azı bir dəfə belə bir təcrübədə iştirak etməlidir. Bizə bu şəraiti yaratdıqları üçün Universitetimizə dərin təşəkkürlərimi bildirirəm.

*Müsahibəni hazırladı:*
*Nərminə Əsədova*

# Universitetdə əyani tədris prosesi iştirakçılarının sağlamlıqlarının qorunmasına ciddi nəzarət olunur



***Bakı Dövlət Universitetində ikinci həftədir ki, əyani tədris prosesi uğurla davam edir. Mühazirələr "Blackboard" elektron təhsil sistemi üzərindən təşkil olunur, məşğələ və laboratoriya dərsləri isə ənənəvi formada keçirilir.***

Əyani dərslərdə iştirak edən müəllim və tələbələrin sağlamlığının qorunması üçün bütün zəruri tədbirlər görülür, COVID-19 ilə mübarizə məqsədilə qabaqlayıcı və preventiv tədbirlər davam etdirilir. "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın tələblərinə, tədris və təlim-tərbiyə prosesinin iştirakçılarının sanitariya və gigiyena qaydalarına əməl etmələrinə, sosial məsafənin saxlanılmasına ciddi riayət olunur.

BDU üzrə Qaydaların tələblərinə əməl edilməsi məqsədilə profilaktik və preventiv tədbirlərin əks olunduğu daxili tədbirlər planına müvafiq olaraq, BDU-nun ərazisində yerləşən 30 saylı poliklinikanın həkimləri mütəmadi olaraq əyani dərslərdə iştirak edən müəllim və tələbələrin hərarətini yoxlayır, sağlamlıqlarının qorunması, infeksiya ilə mübarizə üsulları, sanitariya-gigiyena qaydalarına ciddi əməl olunması barədə onlarla maarifləndirici söhbətlər aparırlar.

# BDU-nun tələbəsi Avropa çempionu oldu




***Hüquq fakültəsinin I kurs tələbəsi Uğur İlyaslı müxtəlif yaş qrupları üzrə onlayn Avropa çempionatında qalib olub.*** Son günün nəticəsindən asılı olmayaraq, Azərbaycan şahmatçısı Uğur İlyaslı vaxtından əvvəl çempionluğu təmin edib. Belə ki, 18 yaşlı oğlanların yarışında 7,5 xal toplayan Uğur ən yaxın izləyicisini 1,5 xal qabaqlayaraq Avropa çempionu adını qazanıb.

Uğur İlyaslını təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayırıq!

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 29.10.2021
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08